# CAHİL CƏMİYYƏTİ TƏRK ETMƏK

İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn əzabı dəf edə bilmərəm!" – deməsi istisnadır. Onlar dedilər: "Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir. (Mumtəhənə surəsi, 4)

CAVİD YALÇIN

# MÜNDƏRİCAT

Giriş

Zəif imanlı insanın küfr mühitinə meyil göstərməsinin əsas səbəbləri

Şeytanın küfrlə birlikdə olmağa təşviq edən mənfi təlqinləri

Qanuni bir səbəb olmadan küfr şəraitində olmağın zərərləri nələrdir?

Qanuni bir səbəblə küfr mühitinə düşən möminin daşıdığı xüsusiyyətlər

Mömin ancaq digər möminlərlə birlikdə ola bilər

Mömin birliyi içində olan və fərqli imani mövqelərə sahib olan insan tipləri

Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısılə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra

müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Quranın Zumər surəsində, axirətdə insanların hesaba çəkilməsindən bəhs edilərkən onların, **cənnətə ya da cəhənnəmə "qruplar" halında yollanacaqları xəbər verilir** (Zumər surəsi; 71-73). Bir başqa ayədə də məhşər günü***, başçıları ilə birlikdə hesaba çağırılan "insan qrupları"ndan bəhs edilir*** (İsra surəsi; 71). Yəni insanlar axirətdə hər nə qədər fərdi olaraq hesaba çəkilsə də ümumiyyətlə, hesabın əvvəlində və nəticəsində qruplar halında bir rəftara tabe olarlar. Hər kəs özününkünə yaxın və oxşar mövqe və dərəcələrə sahib kəslərlə eyni qrupda yer alar, bənzər aqibətə uğrayar. Cənnətə və ya cəhənnəmə girər, oxşar dərəcələrdə cəza və ya mükafat görər. Buradan hərəkətlə, insanın dünyada ikən hansı "insan qrupu" içində yer aldığının da son dərəcə əhəmiyyətli bir mövzu olduğu ortaya çıxar.

İlk baxışda, yer üzündə bir-birindən fərqli çox sayda qrup varmış kimi görünsə də insanlar həqiqətdə iki əsas qrupa ayrılarlar. Bunlar, Allaha və axirətə iman edən mömin birliyi ilə, Allahı və axirəti tanımayan inkarçılar birliyidir. Allah və axirət inancından məhrum olan ikinci qrupa, içində olduqları böyük şüursuzluq və məlumatsızlıq səbəbiylə, Qurani bir termin olaraq "cahil cəmiyyəti" adı verilər. Bu cəmiyyətin dəyər mühakimələri, əxlaqi meyarları Allahın qoyduğu hökmlərə görə deyil, yanlış və dəyişmiş cahil cəmiyyətin müddəalarına görə təyin olunmuşdur.

Axirət günü cənnətə sövq edilənlər arasında yer ala bilmək ancaq bu dünyada da möminlərin tərəfində olmaqla mümkündür. Bunun ilk mərhələsi isə insanın içində olduğu cahil cəmiyyətini tərk etməsidir. Necə ki, inkarçılardan "**qopub-ayrılmaq**" Quranın açıq bir əmridir: "**Onların deməlırinə qarşı sən səbir et və onlardan gözəl bir ayrılma tərziylə (düşüncə və hərəkət baxımından əsaslı bir münasibətlə) qopub-ayrıl.**" (Müzzəmmil surəsi; 10)

Qurandakı nümunəvi möminlərin, ən başda da peyğəmbərlərin izlədiyi yol budur. Məsələn, hz. İbrahim, inkarçı qövmünə belə səslənmişdir: "**Sizdən və sizin Allahdan başqa tapındıqlarınızdan qopub-ayrılıram və Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə ibadət etməklə bədbəxt olmayacağam.** "(Məryəm surəsi; 48)

Bu qopub-ayrılma hərəkəti olduğu kimi qəlbən və zehni olaraq da reallaşdırılmalıdır. Faktiki olaraq, insan cahil cəmiyyətinin üzvləri ilə deyil, möminlərlə birlikdə olmaq üçün xüsusi bir səy göstərməlidir. Bu birinci şərtdir. Lakin bunu edərkən zehni və ruhi olaraq da, cahil mədəniyyətinin bütün təsirləri yox edilməli, şüur altındakı bütün təlqinləri və izləri təmizlənməlidir.

Bunu etmək heç də çətin bir şey deyil. Çünki normal bir insan onsuz da görüb tanıyanda təbii olaraq imanı küfrə seçər; küfrün maddi və mənəvi pisliklərindən təmizlənmək istəyər. Çünki iman; insan üçün faydalı olan, insanın ruhuna və nəfsinə zövq verən bütün gözəllikləri içində saxlayar. Allah, cənnətdə olduğu kimi dünyada da, möminlərə heç bir inkarçının çata bilməyəcəyi maddi-mənəvi ləzzətləri, nemətləri və gözəllikləri, cənnətin bir nümunəsi olaraq təqdim etmişdir, bundan sonra da təqdim edəcək. Möminlər, cənnətdəki sonsuz neməti, böyük ehtişam və estetikanı təqdir edə biləcək bir həssaslığa sahib olduqları kimi, dünyadakı nemətləri də təqdir edə biləcək yeganə insanlardır.

Buna qarşı olaraq inkar isə, insanın ruhunu sıxan, onu ağır təzyiqlər, ehtiraslar, vəsvəsə və ehtiraslar altında boğan, onu həyatın gözəlliklərindən məhrum edən bir sistemdir. Möminlərlə müqayisədə, küfrə imtahan məqsədilə verilən bir sıra nemətlər onun əzabını artırmaqdan başqa bir işə yaramaz. Məşhur bir İslam aliminin bənzətməsi ilə bu nemətlər "zəhərli bal" kimidirlər. Daha bu nemətləri dadərkən inkarçılar, bunların içindəki əzabın acısını hiss etməyə başlayarlar. İnkarın axirətdəki əzabı daha dünyadaykən belə onları izləyir.

Burada əhəmiyyətli bir ilahi sirrə də toxunmaq lazımdır: imanı sevmək və onun insana gətirdiyi maddi və mənəvi ləzzətlərdən zövq ala bilmək, küfrdən isə nifrət edib onu çirkin görmək, hər nə qədər təbii görünsələr də əslində tamamilə Allahın lütfü sayəsində qovuşulan nemət və üstünlüklərdir. Allah bu metafizik vəziyyəti bir ayədə belə bildirir.

**... Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. (Hucurat surəsi, 7)**

Buna qarşı olaraq Allah, bu böyük lütf və ehsanının dəyərini onlara göstərmək üçün eyni vəziyyətin tərsini küfr üçün yaratmışdır. Bunun nəticəsində isə, inkarçılar imanın ehtiva etdiyi gözəllikləri "möcüzəvi bir şəkildə" görə bilməz, əksinə cahil cəmiyyətinin; pis, qaranlıq, sıxıcı sistemindən zövq alarlar. Texniki ifadəylə, hisslərində bir pozuqluq vardır. Bu təsadüfən əmələ gəlmiş bir pozuqluq deyil; Allah tərəfindən xüsusi olaraq yaradılmışdır. Allah, küfr sisteminin ehtiva etdiyi bütün pislikləri və günahları, inkarçılar üçün "bəzəkli" etmişdir. Quran bu sirri belə xəbər verir:

**Məgər öz Rəbbindən vəhy edilmiş aydın dəlilə istinad edən kimsə pis əməli özünə gözəl göstərilən və öz nəfslərinə uyan kimsələr kimi ola bilərmi?! (Məhəmməd surəsi, 14)**

Küfrün liderləri arasında bu bəzəkli və cazibədar görmə hadisəsi elə ölçülərə çatmışdır ki, bunu sanki həyat fəlsəfəsi halına gətirmişlər. Məsələn, masonlar öz qaynaqlarında pislik və rəzillikdən zövq alanları belə müdafiə edirlər:

"İt üçün sümüyün, donuz üçün nəcisin cazibədar bir dadı olmasaydı, onlar bu maddələrlə qarınlarını doyurmaq istəyərlərdimi? Alçaqlıqların hər növündən ayrı bir dad alan güclü kəsləri ayıblamayın. "(Mason Jurnalı, Sayı 29, Səhifə 20)

Göründüyü kimi, əgər insan imanın verdiyi açıq və aydın ruh halına sahib olmazsa, cahil cəmiyyətinin qaranlıq və iyrənc dünyasını "bəzəkli və cazibədar" görməyə, o dünyaya qarşı içində bir meyil hiss etməyə başlayır. Həyatın hər anına müdaxilə edən, insan zehninin hər nöqtəsini təsiri altına alan cahil sistemi, möminlərin arasına yeni qatılmış ya da möminlərin arasında olub da əsl bir imani yetkinliyə çata bilməmiş kəsləri də mənfi istiqamətdə təsir edib onlara zərər verə bilər. Zəif imana sahib insan belə bir yara aldığı təqdirdə möminlərin əlindəki böyük nemətləri buraxaraq, cahil cəmiyyətdəki sadə və aldadıcı bəzi "bəzək"lərə aldana bilir.

Şüuraltında cahil cəmiyyətdən qalmış bir sıra, romantiklik, macəraçılıq, nümayiş etmə arzusu kimi nəfsani meyilləri küfrün arasında təmin etmə axtarışları da, insanı zamanla inkarçıların arasına itələyən amillərdəndir.

Nəticə olaraq, edilməli olan, cahil cəmiyyəti tam olaraq tərk etmək, ona heç bir şəkildə meyil göstərməmək və şüuraltındakı cahil qırıntılarını əsaslı olaraq təmizləməkdir. Bu kitabça, bu mövzudakı bəzi əhəmiyyətli nöqtələri Quranın əsasında ortaya qoymaq üçün yazılmışdır.

Sonrakı səhifələrdə, imanı zəif bir insanın küfr mühitinə nəfsani olaraq meyil göstərməsinin arxasında duran səbəbləri, şeytanın bu mövzudakı azdırma üsullarını, möminlərin hansı şərtlərdə küfrlə birlikdə ola biləcəyi, küfr mühitində olmağın zərərləri, hər cür şərtdə möminlərlə birlikdə olmağın vacibliyi kimi mövzuları Quran ayələri ilə araşdıracağıq.

# Zəif imanlı insanın küfr mühitinə meyil göstərməsinin başlıca səbəbləri

**Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır. Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir. Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Onlar əsl qafildirlər. Heç şübhəsiz ki, ziyana uğrayanlar da onlardır. (Nəhl surəsi; 106-109)**

Möminlərlə birlikdəymiş kimi göründüyü halda, inkarçıların olduğu mühitlərə meyil göstərən kəslər hər dövrdə, hər müsəlman birliyinin arasından çıxmışdır. Bu cür kəsləri üç qrupa ayıra bilərik:

- Mömin olub, həyatını da Qurana görə təşkil etdiyi halda səhv və qəflət nəticəsində müvəqqəti olaraq bu cür bir meyil göstərən kəslər;

- İslam diniylə yeni tanış olub, amma məlumat əskikliyi səbəbiylə Qurani həyat tərzinə tam olaraq uyğunlaşmamış, əvvəlki həyatından hələ həqiqi mənada qopa bilməmiş kəslər;

- Uzun bir müddət möminlərlə birlikdə olduğu halda həyatını və düşüncə tərzini Qurani ölçülərə görə təşkil edə bilməmiş, imani dərinliyi əldə edə bilməmiş və nəfsinin idarəsindən çıxmağı bacara bilməmiş zəif iradəli kəslər.

Bunlardan birinci qrupa daxil olanlar, anlıq olaraq nəfslərinə tabe olmaları nəticəsində belə bir səhvə yol verərlər. Ancaq xəbərdar edildikdən və etdikləri səhv özlərinə bildiriləndən sonra, tövbə edib Allahdan bağışlanma diləyərlər. Eyni səhvi təkrarlamaqdan da çəkinərlər. İkinci qrupdakılar isə, İslamla yeni tanış olublar və bu səbəbdən hələ təhsil mərhələsindədirlər. Bu səbəblə, səmimi olduqları təqdirdə, lazımi dini məlumatı əldə etdikdən sonra bu cür səhvləri təkrarlamamaları ümid edilə bilər. Ancaq içində olduqları keçid mərhələsini bir fürsət olaraq görməyə, özlərinə göstərilən rahatlığı istismar etməyə çalışsalar, Allah qatında son dərəcə pis bir mövqeyə düşəcəkləri də mütləqdir.

Bu qruplar arasında axirətləri baxımından ən təhlükəli mövqedə olanlar, bu kitabçanın da əsas mövzusunu meydana gətirəcək olan üçüncü qrupdakılardır. Bunlar o qədər zaman içərisində əldə etdikləri o qədər məlumata, möminlər arasında keçirdikləri uzun müddətə baxmayaraq, hələ Quranda təyin olunan ixlaslı və səmimi mömin modelinə nail ola bilməmişlər. Bu səbəblə də, şeytanın və nəfslərinin

vəsvəsələrinə son dərəcə meyillidirlər. Nə yanlarında olan möminlərdəki gözəl nümunələrdən istifadə edər, nə də öz səhvlərindən ibrət alarlar. Çox zaman da özlərinin haqlı və doğru yolda olduqlarını zənn edib, düzəlməyə, öyüd-nəsihət almağa ehtiyaclarının olmadıqlarını zənn edərlər.

Ürəklərində əsaslı bir mənəvi dəyişiklik edə bilmədikləri təqdirdə, bu cür kəslərin möminlərin arasında çox qala bilməyəcəkləri Allahın mütləq bir qanunudur. Öz razılıqlarıyla möminlər arasında qalmaq istəsələr belə, Allah buna icazə verməyəcək. Çünki onlar nəfslərinin fücurunu qorumaqda qərarlıdırlar, içlərindəki pisliyi təmizləməyə çalışmırlar. Allah isə qəti olaraq pisi yaxşıdan ayıracağını vəd etmişdir:

**Allah pisi yaxşıdan ayırmayınca möminləri sizin olduğunuz vəziyyətdə tərk edən deyildir... (Ali İmran surəsi, 179)**

Üç qrupa ayırdığımız bu kəsləri küfr mühitlərinə girməyə və küfrlə birlikdə olmağa yönəldən də məhz, nəfslərində saxladıqları bu pisliklər və bunlardan qaynaqlanan xəstəlik və pozuqluqlardır. Sonrakı səhifələrdə bu xəstəlikləri və pozuqluqları araşdıracağıq.

## Qavrama və məntiq pozuqluğu: Küfrün "bəzəkli və cazibədar" olması

İnsanı möminlərin arasından küfrün çirkin mühitinə girməyə yönəldən səbəblərin ən əhəmiyyətlisi girişdə də bəhs etdiyimiz "qavrama və məntiq pozuqluğu" dur. Allah, tam mənasıyla iman edən, özünə heç bir şeyi ortaq qoşmayan səmimi möminləri həm dünyada, həm də axirətdə razılığına, rəhmətinə və nemətinə qovuşduracağını Quranın bir çox yerində ifadə etmişdir. Allahın bu vədinə nail olan elçilər yenə Quranın bir çox yerində nümunə göstəriləcəklər. Hz. Davud, hz. Süleyman, hz. Zülqərneyn, hz. Yusif, Allahın onlara güc, iqtidar, mülk və nemət verdiyi üstün şəxslərindəndir:

**Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha həmd olsun!" Süleyman Davuda peyğəmbərlikdə varis oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və bizə hər şeydən verildi. Həqiqətən, bu, bizə göstərilən açıq-aşkar üstünlükdür". Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplanıldı. Onlar müntəzəm şəkildə yerbəyer edildilər. (Nəml surəsi, 15-17)**

**Biz Davuda Özümüzdən bir lütf bəxş etdik və buyurduq: “Ey dağlar və quşlar! Onunla birlikdə Allahın şəninə təriflər deyin!” Biz dəmiri onun üçün yumşaltdıq. Sonra buyurduq: “Geniş zirehlər düzəlt və halqaları toxuduqda ölçüyə riayət et. Ey Davud ailəsi, yaxşı işlər görün! Mən, həqiqətən də, sizin nə etdiyinizi görürəm”. Səhər bir aylıq məsafəni qət edən, günortadan sonra yenə bir aylıq məsafəni qət edən küləyi də Süleymana ram etdik. Biz onun üçün mis qaynağını sel kimi axıtdıq. Rəbbinin izni ilə cinlərin bir qismi onun qabağında işləyirdi. Onlardan kim ki, Süleymana itaət etməyib əmrimizdən çıxırdısa, onu Cəhənnəm oduna düçar edirdik. Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! Bu nemətlərə şükür edin! Qullarımdan şükür edən azdır. (Səba surəsi, 10-13)**

**Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik. (Kəhf surəsi, 84)**

**O dedi: “Rəbbimin mənə əta etdiyi mülk daha yaxşıdır. Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim. (Kəhf surəsi, 95)**

**Beləliklə, Yusifə yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik.**

**İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir. (Yusif surəsi, 56-57)**

Eyni şəkildə, hz. Nuh, hz. İbrahim, hz. Musa kimi bir çox peyğəmbər də qövmlərinin inkar edənləriylə bir müddət mübarizə etdikdən sonra özlərinə tabe olan saleh möminlərlə birlikdə onlara üstün gəlmişlər, onların ardından yer üzünə varis olmuşlar.

Allah beləcə, əvvəlki nəsillərdən nümunələr verərkən bu gün yer üzündə yaşayan saleh möminləri də müjdələyir. Səmimi və ixlaslı möminlər də Allahın bu vədinin reallaşmaqda olduğuna şəxsən yaşayıb şahidlik edirlər. Bir tərəfdən də Allahın sonsuz rəhmətini daha da genişlətməsini ümid edirlər. Məhz həqiqətən iman etmiş

xalis möminlər üçün Allahın yer üzündəki qanunu budur, axirətdə isə onları çox daha üstün, xeyirli və davamlı olan gözləyir.

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında hamıya, Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik. (Əraf surəsi, 32)**

Nəticə olaraq, Allah öz yoluna və rizasına uyan möminlərə dünyada sahib oluna biləcək hər cür mal, mülk və neməti vermişdir; bunu artıracağını da vəd etmişdir. Bunlar inkarçıların sahib olduqlarından çox daha keyfiyyətli, çox daha təmiz, gözəl, estetik və zövq vericidir. Çünki möminlər həmişə seçici olduqları üçün, hər şeyin ən təmizinə, ən yaxşısına sahib olma anlayışındadırlar.

Vəziyyət belə olduqda, bir insanın, möminlərə verilən bu qədər nemət və bolluğa, rəhmət və bərəkətə, seçilmişlik və üstünlüyə, yaşayaraq şahid olduğu halda, küfrün iyrənc mühitlərinə etina etməsi, onların arasına girərək nəfsinə bir sıra ucuz təmin yolları axtarışı onun iman ölçüsündən çox daha başqa bir ölçüdə olduğunun göstəricisidir. Belə bir insanın ağlının tamamilə örtüldüyü, yaxşını pisdən, doğrunu səhvdən, gözəli çirkindən ayırd edə bilməyən, bütün hissləri pozulmuş, şüuru bağlanmış bir insan halına çevrildiyi ortadadır. Çünki küfrün bütün o mənfi xüsusiyyətlərinə, Allahın nəzdindəki vəziyyətinə baxmayaraq, küfrdə hələ bəzəkli, cazibədar bir istiqamət tapması, şeytanın tərəfdaşları olan inkarçıları özünə yaxın görməsi və onlarla birlikdə olmaqdan bir narahatlıq duymaması azğınlığın açıq bir göstəricisidir:

**Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir. (Fatir surəsi, 8)**

Bu qorxunc vəziyyət insana ya daha sonra müsəllət olar:

**Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar. (Münafiqun surəsi, 3)**

... ya da əvvəldən bəri ürəyində gizləyib bir müddət mömin təqlidi etdikdən sonra ortaya çıxıb gözlər önünə sərilər:

**Onlar sizin yanınıza gəldikdə: "Biz iman gətirdik!" – deyirlər. Halbuki, onlar sizin yanınıza küfrlə gəlmiş və onunla da getmişlər. Allah onların gizlətdiklərini daha yaxşı bilir. (Maidə surəsi, 61)**

Ancaq nəticə olaraq hər ikisinin də çatdığı nöqtə eynidir. Bu cür insanlara möhlət verilməsi və bunların bir müddət möminlərin arasında qala bilmələri də əlbəttə, bir çox ilahi hikməti ehtiva edir. Bu hikmətlərdən bir neçəsini qısaca saya bilərik:

- Möminlərin bu vəziyyətdən ibrət götürüb Allahın əzab və azdırmasından kimsənin zəmanətdə olmadığını görərək bənzər bir vəziyyətə düşməkdən şiddətlə çəkinmələri. Bu səbəbdən Allahdan olduqca qorxub çəkinmələri;

- Özlərinə imanı sevdirib küfrü çirkin göstərən Allaha həmd və şükürlərini artırmaları;

- Hz. Süleymanın şeytanları dinin mənfəətinə istifadə etməsi kimi, Allahın, münafiq xarakterli bu kəsləri də müəyyən bir müddət İslamın və möminlərin faydasına xidmət etdirməsi;

- Münafiqlərin bu qarışıqlıq və azğınlıqlarına möminlərin şahid olmaları, münafiqlərin də beləcə, axirətdə irəli sürə biləcək heç bir haqlı səbəb və bəhanələrinin qalmaması.

## Cahil cəmiyyətdən şüur altında qalmış müxtəlif istək və komplekslərini təmin etmə axtarışı

Cahillikdən geri döndükdən sonra keçmiş həyatını kökündən silib, "binasının təməlini Allah qorxusu və rizası üzərində" qura bilməmiş bir insan, şüur altında hələ cahilliyə aid bəzi xarakter xüsusiyyətləri və meyil etmələr daşıyar. Bu insan, əslində cahil cəmiyyətinin bütlərini ürəyindən tamamilə söküb ata bilməmiş, yalnız bunların üstünü örtmüşdür. Bu səbəbdən, haqqında danışılan bütlərin rəğbət gördüyü cahillik mühitinə qarşı daxilən bir həsrət duyar. Çünki bu bütlərini təmin edə biləcəyi yeganə mühit bu küfr mühitidir. Bu mühitin məhsulu olan; gecə həyatı, romantizm, eşqbazlıq

psixologiyası, macəraçılıq, qoçuluq ruhu kimi psixologiya, gözəllik və zənginliyi ilə öyünmə, nümayiş etmə kimi primitiv zövqlər, uyğun mühiti tapınca təkrar su üstünə çıxarlar.

Bu cür bir insan, şüur altında daşıdığı bu cahil xarakterini zamanla şüur üstünə çıxarıb bunu tətbiq edə biləcəyi uyğun mühitlər axtarar. Bu mühitlərin möminlərin olduğu mühitlər ola bilməyəcəyi açıqdır. Geriyə qalan isə küfr mühitindən başqası deyil. Xüsusilə imanla yeni tanış olmuş kəslərin bir qisminin şüuraltında cahil dövründən daşımış ola biləcəkləri xüsusiyyətləri, başlıqlar altında araşdıra bilərik.

**- Özündəki bəzi xüsusiyyətlərdən ötrü öyünmə, nümayiş etmə, insanlardan diqqət görmə arzusu**

Köhnə həyatlarında sahib olduqları bir sıra maddi və fiziki xüsusiyyətlərindən ötəri ətrafındakıların diqqət və iltifatlarına alışıq olan kəslər İslamla tanış olduqdan sonra, bəzən, möminlərdən də bu diqqət və davranışları gözləyirlər. Ancaq, özlərindəki bu-gözəllik, yaraşıqlılıq, populyarlıq, zənginlik, sosial status, məqam-mövqe, və s. kimi-xüsusiyyətlərdən ötəri çöldə gördükləri diqqət, kompliment və heyranlığı möminlərin arasında eyni mənada görə bilməzlər. Möminlərin tərif və davranışları şəxsin özünə deyil, onda təcəlli edən bu xüsusiyyətlərin həqiqi sahibinə, yəni Allaha olacaq. Qurana görə, "... Allah, heç bir şeyə ehtiyacı olmayandır, təriflənməyə layiq olandır" (Bəqərə, 267). Bu səbəbdən nə möminlərin, nə də İslamın kimsənin gözəlliyinə, zənginliyinə, zəkasına, karyerasına ya da ictimai mövqeyinə ehtiyacı yoxdur. Möminlər, insanları bu cür xüsusiyyətlərinə görə deyil, təqvalarına görə qiymətləndirərlər. İnsanların deyil, ancaq Allahın razılığını güdməklə əmr olunmuşdur.

İnsanın öyünmək, nümayiş etmək üçün mütləq diqqətə çarpan fiziki, maddi və ya sosial xüsusiyyətlərə sahib olması da lazım deyil. Hər insanın nəfsində, hər hansı bir mövzuda insanlara qarşı təkəbbür, nümayiş etmə, öyünmə meyli potensial olaraq mövcuddur. Nəfsin fücurları arasında yer alan bu "öyünmə" duyğusunu Allah, dünya həyatının axirətə baxmayan boş, aldadıcı, əyləndirici, göz boyayıcı tərəfinin xüsusiyyətləri arasında sayar:

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə**

**şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Möminlərin arasında Qurani məlumat və tərbiyəni aldıqdan və nəfsini tanıdıqdan sonra, səmimi bir mömin, tərifə meyilli olmağın həqiqətdə nə qədər sadə və alçaldıcı, Allah qatında nə qədər utanc verici olduğunu anlayar və dünyagörüşünü ona görə düzəldər. İmanı ürəyinə tam olaraq yerləşdirməmiş bir insan isə, tərk edə bilmədiyi o köhnə cahil ağlıyla, nəfsindəki öyülmə və ucaldılma istəyini təmin etmə yolları axtarar. Bunun üçün küfrün arasına qarışa biləcəyi imkanlar axtarar. Bu şəkildə qürurunun təqdir edilməsini, həqiqətdə Allaha aid olan, lakin imani əskikliyi səbəbiylə özünə aid etdiyi xüsusiyyətlərindən ötəri nəfsinin ucaldılmasını istəyər. Çöldə, "üzərinə geydiyin çox yaraşmış", "çox yaraşıqlısan", "çox gözəlsən" şəklində iltifatlarla qarşılaşdığında nəfsi bundan böyük bir həzz duyar, qüruru təqdir edilər. Möminlərin sevgi və marağı isə insanların təqvası və Allaha olan yaxınlığı ilə düz mütənasib olduğundan, bu diqqət və sevgi onun nəfsini təmin etməyə yetməz.

Belə bir insan, nəfsindəki nümayiş etmə, avam dillə, "özündən razı olma", "havalanma" kimi primitiv cahil duyğularını möminlər arasında yaşatmağa çalışırsa, nə qədər komik və acınacaqlı hala düşəcəyini bilir. Bu səbəblə, bu hisslərini yaşada biləcəyi ən uyğun mühit olaraq küfr mühitini görür. Cahillikdən qalma bu meyillərini təmin edə bilmək üçün nəfsi onu küfr mühitlərinə təhrik edər. Allahın din yolunda sərf etməsi üçün özünə əmanət etdiyi mal, mülk, imkan və sərvəti möminlərin arasında eqoist məqsədlərlə istifadə edə bilməyəcəyinin fərqindədir. Buna görə, bu imkanları əlinə keçirəndə vaxtının böyük bir hissəsini küfrün arasında keçirməyə çalışar. Halbuki, yalnız Allahın əmanətləri olan bu imkan və nemətlərlə küfrün arasında nəfsini ucaltmağa çalışması, bunları istək və həvəsi istiqamətində istifadə etməsi ruhuna əziyyət verməkdən və günahını artırmaqdan başqa bir işə yaramaz.

Bir az ətraflı şəkildə düşünüldüyündə bu ruh halının, küfrün tərif və iltifatlarından məmnun olmaq, ona dəyər vermək, onu ciddi qəbul etmək mənasına gəldiyi asanlıqla görülər. Halbuki, Quranda, küfrə düşənlər haqqında "**qəlbləri vardır, lakin onunla anlamazlar, gözləri vardır bununla görməzlər, qulaqları var, onunla eşitməzlər. Bunlar heyvanlar kimidir, hətta daha çox azğınlıqdadırlar. Məhz bunlar qafil olanlardır.** "(Əraf surəsi; 179) hökmü onsuz da verilmişdir. Bu vəziyyətdə, ayədə bu qədər açıq bir şəkildə təsvir edilən inkarçıların diqqət və iltifatlarına dəyər vermək, onlara əhəmiyyət vermək çox səhv, eyni zamanda da alçaldıcı bir rəftar olacaq. Çünki küfrün möminə iltifat etməsi, bir itin ona yaltaqlanmasından, yaranmağa çalışmasından daha qiymətli bir hadisə deyil. Hətta üstdəki ayənin bildirdiyinə görə daha da dəyərsizdir.

İnsan, nümayiş edərkən ətrafındakı inkarçıların özünü görüb təqdir etdiklərini zənn edər. Halbuki, bu şəkildə yalnız özünü aldadar. Çünki ətrafında gəzən insanların hansılarının, "**Məgər onların yeriyən ayaqları varmı? Ya da tutan əlləri mi var? Və ya görən gözləri mi var? Yoxsa eşidən qulaqları var ... ... Onları sənə baxan (kimi) görərsən, halbuki onlar görməzlər belə** "(Əraf surəsi; 195,198) ayələrində təsvir edilən, insan şəklindəki ruhsuz ət və sümük görünüşlərdən olub-olmadığını bilməz.

**- Tətilçi və macəraçı ruhunu davam etdirmə**

İmanı tam olaraq ürəyinə yerləşdirməmiş olanların bəziləri də, cahillikdən daşıdığı tətilçi və macəraçı ruhu yaşada bilmək, həyəcan və yenilik axtarmaq üçün küfrün arasına qarışmağa fürsət axtarar. Bu tip kəslər narahat, fırtınalı bir ruh halına sahib olduqlarından, möminlərlə rahat şəkildə bir yerə gələ biləcəkləri mühitlərdə sıxılıb narahat olarlar. Hər fürsətdə bir bəhanə taparaq özlərini çölə atarlar. Cahilliyin, şənbə günü buraya gedilər, bazar günü belə edilər kimi klassik həftə sonu ya da tətil sindromları da bu zehniyyətin bir parçasını meydana gətirər.

Bu psixologiyaya sahib olan insan, özünü, yaz gəldiyində tətilə getmək ya da həftə sonu olduğunda əyləncə yerlərinə getmək istiqamətində məhdudlaşdırmışdır. Bunu böyük bir hədəf halına gətirər və bu hədəfə çatmadıqca da rahatlaya bilməyəcəyini düşünər. Halbuki, həqiqi bir möminin belə zəiflikləri yoxdur. Çünki onun üçün ən böyük hədəf, Allahın razılığını qazanmaq, Ona yaxınlaşmaq, Ona qul olmanın ləzzətini yaşamaqdır. Dünyəvi zövqlər, yalnız Allahdan gələn bir nemətdir. Allah diləsə bunları verər, diləsə geri alar. Mömінin bundan ötəri sıxıntı duyması, stressə girməsi doğru olmaz. Ürəyi, dünyəvi macəraların, sadə eşqbazlıqların, kiçik zövqlərin həyəcanı ilə deyil, Allahın zikrinin, Onu bilmənin həyəcanı ilə doludur. O, olduqca ən böyük neməti, Allahın razılığını qazanmaqda görər, bu səbəbdən ən böyük hüzura və rahatlığa çatar. Allah, kitabında möminlərin bu xüsusiyyətini belə bildirir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

**- Qoçuluq ruhunu yaşatmaq səyi**

İmanı ürəyinə yerləşdirməmiş olan insan, möminlər arasında heç vaxt qəbul edilməyəcək olan cavanlıq ruhunu da ancaq küfr arasında yaşada biləcəyinə, bu ruhu küfrlə birlikdə paylaşa biləcəyinə qənaət gətirər və küfrün olduğu mühitlərə meyil edər. Keçmiş həyatından üzərində qalan və möminlərin arasında dəstəklənməyəcəyini

bildiyi; dalaşqanlıq, təcavüzkarlıq, lağlağaçılıq, şiddətdən zövq alma kimi primitiv, vəhşi instinktlərini bu mühitdə təmin etməyə çalışar. Futbol matçlarına gedərək fanatik və təcavüzkar rəftarlar sərgiləmək, qışqırıb, çığırıb dava salmaq, qarışıqlıq olan mühitlərdən xoşu gəlmək bunun ən məşhur nümunələrindəndir.

Ətrafımızdakı cahil cəmiyyətini müşahidə etdiyimizdə, bu təcavüzkar, həyasız, vəhşi, kobud insan modelinin fərqli növlərini rahatlıqla görə bilərik. Quran da bu insan modelini, "and içib duran, alçaq ... xeyirə maneə törədən, təcavüzkar, olduqca günahkar, kobud-hörmətsiz, sonra da qulağı kəsik ..." (Qələm surəsi, 10-13) ifadələri ilə təsvir edər. Belə bir xarakter quruluşunu qoruyan bir insan, özünə nə qədər "müsəlman" deyirsə desin, nəticədə cahil cəmiyyətinin bir hissəsidir. Müsəlmanlığı da, müsəlmanlığıyla öyünməsi də, komanda tutma, tərəfdarlıq zehniyyətindən başqa bir şey deyil. Bu səbəblə, möminlərlə deyil, inkarçılarla, özüylə eyni ruhu paylaşanlarla birlikdə olmağa meyil göstərməsi son dərəcə normaldır.

Bura qədər maddələr halında sıraladığımız eqoist meyillərin qaynağı, mövzunun əvvəlində də vurğuladığımız kimi, insanın iman etmədən əvvəl sahib olduğu və tam mənasıyla yox edə bilmədiyi cahil qırıntılarının təkrar su üzünə çıxmasıdır. Belə bir vəziyyətə düşməmək üçün nəfsdə cahillikdən qalan bütün küfr və şirk toxumlarının kökündən təmizlənməsi, sökülüb atılması tələb olunur. Allah Quranda, insanları sınamaq üçün nəfsə fücurunu ilham etdiyini bildirmişdir. O halda nəfsdə yaradılışdan bir sıra pisliklərin olması təbiidir. Əhəmiyyətli olan qərarlı bir mübarizəylə nəfsi bu pisliklərdən təmizləyərək Allahın sərhədlərinə mütləq bir bağlılıq göstərməkdir. Əks təqdirdə, "**Xeyr! Onların qəlbini qazandıqları günahlar bürümüşdür.Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək! Sonra onlar Cəhənnəmə girəcəklər "**(Mutaffifin surəsi; 14-16) ayələrində təyin olunan kəslərdən olmaq heç də qeyri-mümkün bir vəziyyət deyil.

Bu pislikləri kökündən təmizləmədən keçici üsullarla örtərək şüuraltına sıxışdırmaq, bunları görməzlikdən gəlmək ya da xaricə yansıyan əlamətlərini aradan qaldırmağa çalışmaq əsla qəti bir həll deyil. Çünki şüuraltına, ürəyin dərinliklərinə basdırılan bu pisliklər zamanla yığılıb axır-əvvəl partlama şəklində çölə çıxacaq. İnsan bunları gizləməyə çalışmaqla yalnız özünü aldadar, çünki **"Şübhəsiz Allah, sinələrin özündə gizli saxlayanı biləndir"**. (Ali İmran surəsi, 119) Və Allah "sinələrin özündə gizli saxlayan" bu pislikləri mütləq ortaya çıxaracaq. Bunların axirətdə ortaya çıxması isə insan üçün ən qorxunc olanıdır. Bir ayədə bu hadisə belə təsvir edilir:

**Məgər o bilmir ki, qəbirlərdə olanlar çıxardılacağı və köksdərdə olanlar aşkar ediləcəyi zaman - məhz o gün Rəbbi onlardan xəbərdar olacaqdır? (Adiyat surəsi; 9-11)**

Bura qədər saydığımız tipdən olan kəslər, Quranda təsvir edilən "qəti məlumatla iman etmiş" mömin modelindən olduqca uzaq bir quruluş göstərərlər. Bunların imanı da, möminlərə simpatiya duyma, onları ürəkdən dəstəkləmə, İslamı gözəl bir əxlaq sistemi olaraq görmə şəklindədir. Bu insanlar, hər nə qədər özlərini mömin olaraq görmək istəsələr də əsl möminlər kimi imani dərinliyi tam olaraq əldə edə bilməmişlər. Allahla yaxınlığı lazım olduğu kimi qura bilməmiş və səthi aləmdən hələ çıxa bilməmiş olduqları üçün, "mömin" deyil, ancaq bəlkə "möminliyə keçid mərhələsində" sayıla bilərlər. Quran bu insanların vəziyyətini belə açıqlayar:

**Bədəvilər, dedi ki: "İman etdik." De ki: "Siz iman etmədiniz; ancaq "İslam (müsəlman və ya təslim) olduq deyin. İman hələ ürəklərinizə girmiş deyil. Əgər Allaha və Rəsuluna itaət etsəniz, O, sizin əməllərinizdən heç bir şeyi azaltmaz. Şübhəsiz Allah, çox bağışlayandır, çox əsirgəyəndir." (Hucurat surəsi; 14)**

Ancaq bu keçid mərhələsinin mütləq bir nəticəyə çatacağının, davamlı bu halda qala bilməyəcəyi də yaxşı bilinməlidir. Ayrıca, bu mərhələnin uzanması, insanın hər hansı bir inkişaf göstərməməsi, halından məmnun olması da əslində demək olar bir nəticədir. Çünki bu vəziyyət, insanın artıq yolunu seçdiyinin və bu yoldan məmnun olduğunun göstəricisidir. Bu yolun da Allahın göstərdiyi yol, möminlərin yolu olmadığı açıqdır.

Bütün bunlara qarşı, səmimi, birüzlü, nəfsini tanıyan, Allaha və Rəsuluna qarşı itaətli və təslimiyyətli olan saleh bir möminin şüuraltı deyə bir problemi yoxdur. O, bu cür zəifliklərini idarə altına almış, içindəki cahillik qırıntılarını təmizləmiş, geriyə dönüş gəmilərini yandırmış, problemlərini həll etmiş olan ya da bu istiqamətdə qərarlı bir səy göstərən insandır. Özbaşlarına bir mömin modeli meydana gətirənlərin, aşağıdakı ayələrdə açıq və dəqiq olaraq təsvir edilənin xaricində bir mömin modeli olmadığını yaxşı bilmələri lazımdır:

**Mömin olanlar, ancaq o kəslərdir ki, onlar, Allaha və Rəsuluna iman etdilər, sonra heç bir şübhəyə qapılmadan Allah yolunda mallarıyla və canlarıyla cihad etdilər. Məhz onlar, sadiq (doğru) olanların da özləridir. (Hucurat surəsi; 15)**

**Möminlər ancaq o kəslərdir ki, Allah xatırlandığı zaman ürəkləri ürpərər. Onun ayələri oxunduğunda imanlarını artırar və yalnız Rəblərinə təvəkkül edərlər. Onlar, namazı doğru şəkildə qılarlar və özlərinə ruzi olaraq verdiklərimizdən infaq edərlər. Məhz əsl möminlər bunlardır. Rəbləri qatında onlar üçün dərəcələr, bağışlanma və üstün bir ruzi vardır. (Ənfal surəsi; 2-4)**

## Allahın, imtahan sirrinin bir parçası olaraq, dünyadakı küfr mühitində də nəfsə xoş gələcək bəzi cazibədar xüsusiyyətlər yaratması

Allah möminləri, yaratdığı gözəlliklərdən, zənginlikdən, bolluqdan, ehtişamdan zövq alacaq bir şəkildə yaratmışdır. Bu gözəlliklərdən, bu nemətlərdən zövq almaq, estetik və keyfiyyət duyğularına sahib olmaq həqiqətdə bir mömin göstəricisidir. Necə ki, cənnət də möminlərin bu xüsusiyyətlərinə uyğun, bu zövq və ehtiyaclarına xitab edəcək bir üstünlük və mükəmməllikdə yaradılmışdır: **"Haraya baxsan, bir nemət və böyük bir mülk görərsən." (İnsan surəsi; 20)**

İman edənlər, dünyada da cənnətin bir nümunəsi şəklində olan bu gözəllikləri və nemətləri axtarar, onlardan-Allahın sərhədləri daxilində-ən yüksək səviyyədə istifadə edib zövq alarlar.

Dünya həyatının müxtəlif gözəlliklərinin insanlar üçün cazibədar qılındığı Quranda da ifadə edilər. Bu mövzuyla əlaqədar ayələrdən biri belədir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Ayədə sayılan nemətlərə, möminlərin və ya küfrün sahib olması, bunların nəfsə cazibədar gəlməsi baxımından bir dəyişiklik etməz. Bir möminin bu gözəlliklərə rast gəldiyində bunlardan xoşlanması təbiidir. Bu xüsusiyyətlər və imkanlar möminlərdə olduğu kimi, eyni şəkildə inkarçıların əlində də ola bilər.

Ancaq, nəfsin bunlardan xoşlanmasının təbii və qanuni olması, Allahın Quranda bildirdiyi sərhədləri aşmağı heç vaxt qanuni etməz. Küfrlə birlikdə olmağı istəmək isə, Allahın sərhədlərini aşmaq mənasını verər. Bu səbəblə, mömin, bir mühitdəki texniki gözəlliklərdən xoşlansa belə, bu mühit küfrün hakim olduğu bir mühitsə, oradan uzaq durar.

Bir mühitdə olan müxtəlif zövqləri dada bilmək məqsədiylə küfrlə bir yerdə olmaq istəmənin Qurana görə heç bir məqbul tərəfi yoxdur. Nəticədə, yuxardakı ayədə deyildiyi kimi, bütün bunlar yalnız dünya həyatının keçici zövqüdür və əsl gediləcək gözəl yer olan cənnət, Allah qatındadır. Mömin, hər şeydən əvvəl cənnəti və daha da artığı Allahın razılığını qazanmaq istədiyi üçün, lazım olduğunda "dünyanın keçici zövqü"ndən uzaq durmağı da bilər.

Ayrıca, unudulmamalı olan bir başqa nöqtə, bu cür nemətlərdən alınan zövqün yalnız Allahın bəzi sifətlərinin əks olunması olan estetik, gözəllik və keyfiyyət anlayışlarından qaynaqlandığıdır. Yoxsa xoş gələn şey, bunlara sahib olan, bu məkanları hazırlayan inkarçıların şəxsən özləri deyil.

Burada çox incə bir sərhəd vardır. Bura dünya mühiti olduğu üçün cənnətə və cəhənnəmə aid bir çox xüsusiyyət və anlayış yan-yana hətta bəzən iç-içədir. Məsələn, cənnət kimi göz qamaşdırıcı bir mühitdə, cənnət geyimlərini xatırladan bəzəkli və dəbdəbəli paltarları üzərində daşıyan kəslər, çox vaxt, Allahın Quranda pislik olaraq xarakterizə etdiyi, cəhənnəm əhli inkarçılar ola bilər. Yalnız xarici görünüşünü gözəlləşdirib, iç dünyasını pisliyə sürüyən insanlarla birlikdə olmaq isə, səmimi bir möminin ruhunu qaraldar, ürəyinə sıxıntı və zülmət verər.

Məhz, həqiqi bir mömin belə bir mühiti qiymətləndirərkən gözəlliklə pisliyi bir-birindən çox yaxşı ayırd edər və küfrə bu gözəllikdən və zənginlikdən ən kiçik bir pay ayırmaz. Bu iki zidd tərəfi bir-birinə qarışdıran insan isə, zamanla şəxsən küfrün özündən xoşlanma, onlarla birlikdə olmaqdan zövq alma, onlara qarşı şüuraltında sevgi bəsləmə, heyran olub etina etmə kimi azğın bir ölçünün içinə diyirlənər.

## İnkarçılardakı və küfr mühitindəki bəzi xüsusiyyətlərdən ötəri onlara etina etmə və heyranlıq duyma

İnsanı küfr mühitinin içinə salan ünsürlərdən biri də küfrün zənginlik, gözəllik, mövqe, şöhrət, etibar, karizma kimi bəzi xüsusiyyətlərindən təsirlənməkdir. Gecə həyatı, kübar cəmiyyət, əyləncə dünyası kimi anlayışların media kanalı ilə, insanlara olduğundan çox daha bəzəkli göstərilməsi də nəfsin bu zəifliklərini ortaya çıxarar.

Az əvvəl də vurğulamışdıq; nəfsin gözəllikdən, zənginlikdən, ehtişamdan zövq alması ilə, nəfsin bu gözəllik və zənginliyə sahib olan inkarçılara qarşı heyranlıq bəsləməsi, onlardan təsirlənməsi, ilk baxışda bir-birlərinə bənzər görünsələr də, son dərəcə fərqli iki şeydir! Birincisi, hər nə qədər küfr mühitinə girmək üçün bir səbəb meydana gətirməsə də, qanuni bir vəziyyətdir. Halbuki, ikinci vəziyyət, belə bir insanın ya heç imanı olmadığını ya da imanının son dərəcə səthi və zəif olduğunu, hadisələri son dərəcə "zahiri" (səthi) bir dünyagörüşüylə qiymətləndirdiyini göstərər. Bu dünyada hər nəyə sahib olarsa olsun, axirətdə "çılğın yanan atəşin yoldaşı" olacaq inkarçılara etina edən bir insanın, axirətə iman istiqamətində problemləri olduğu, axirəti özündən olduqca uzaq gördüyü açıqdır.

Halbuki, həqiqət bir mömin üçün küfrə, ondakı hər hansı bir xüsusiyyətdən ötəri heyranlıq duymaq, ondan təsirlənmək kimi bir vəziyyət qeyri-mümkündür. Mömin bilər ki; küfrün əlindəki bir sıra imkanlar, onları sınamaq üçün Allah tərəfindən bilərəkdən yaradılmışdır. Küfrün özündə isə həqiqətdə etina ediləcək heç bir şey yoxdur. Küfrdən yalnız ibrət götürülər. Allah, bəzi imkan və nemətləri, inkarçılara, yalnız onların azğınlıqlarının və əzablarının artması üçün verir və onların axirətdən də heç bir nəsibləri yoxdur. Quran, möminin inkarçılara qarşı heç bir qibtə etmə, etina etmə duyğusu hiss etməməli olduğunu tez-tez vurğulayar:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir. (Tövbə surəsi; 55)**

**Onların bəzi təbəqələrinə verdiyimiz fani dünya malına gözünü dikmə, onlara görə kədərlənmə, möminlərlə yumşaq davran (Hicr surəsi, 88)**

**Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır. (Taha surəsi, 131)**

**Qoy kafirlərin diyarbədiyar gəzib dolaşması səni aldatmasın! Bu, az bir mənfəətdir. Sonra isə onların yeri Cəhənnəmdir. Ora nə pis yataqdır! (Ali İmran surəsi, 196-197)**

**... Elə isə, onlara qarşı nəfsin həsrət çəkməsin. Həqiqətən, Allah onların nə etdiklərini biləndir. (Fatir surəsi, 8)**

Mömin, küfrün bir qismində olan bəzəkli, cazibədar görünüşlərin təsadüfi, məqsədsiz olaraq yaradılmadığını bilər. Bilər ki, izzət və şərəf yalnız Allahındır. Bütün gözəlliklər, zənginliklər, mövcud olan hər şey tamamilə Allaha aiddir; Allahın Qani və Camal sifətlərinin təcəlliləridir. Buna görə küfrdə bir güc və üstünlük görmək və bundan ötəri küfrə yaxınlaşmağa çalışmaq, möminlərin deyil, ancaq mömin təqlidi edən münafiqlərin bir xüsusiyyətidir. Necə ki, Quran münafiqlərdən danışarkən belə deyir:

**Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur. (Nisa surəsi, 139)**

## Bir sıra emosional və romantik səbəblərdən ötrü küfrə qarşı sevgi bəsləmə

Bu mövzunu araşdırmazdan əvvəl sevgi anlayışına açıqlıq gətirməkdə fayda var.

Sevginin əslində iki fərqli növü vardır. Birincisi möminlərə xas olan bir sevgidir. **İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli Allah qəlblərdə bir sevgi yaradacaq (Məryəm surəsi**; 96) ayəsiylə açıqlayar. Bu sevgi, təməldə Allah sevgisidir. Mömin, özünü yaradan və sonsuz nemətlər verən Allahı hər şeydən daha çox sevər. Bu sevginin xaricə əks olunması isə, Allah sevgisindən qaynaqlanan və Allahın sevdiyi, ondan məmnun olduğu kəslərə qarşı duyulan sevgidir. Bu kəslər də, başda Allahın elçisi olmaq üzrə yalnız möminlərdir. Möminlərə qarşı duyulan bu sevginin qaynağı, onların Allahın dostu və sevdikləri olmaları, Allahın da onları sevməsi və saysız sifətləriylə ən çox olaraq onların üzərində təcəlli etməsidir. Yoxsa bir möminə qarşı belə, ona Allahdan müstəqil bir varlıq gözüylə baxıb müstəqil bir şəxsiyyət verərək sevgi bəslənə bilməz.

Sevginin ikinci növü, müşriklərə və inkarçılara xasdır. Bu, Allahla heç bir əlaqə qurulmadan, bilavasitə nəfsinin eqoist duyğularını təmin etmək məqsədiylə ürəkdə bəslənən və emosional bağlılıq şəklində inkişaf edən bir sevgi növüdür. Allahdan müstəqil bir şəkildə, içində Allahın razılığı, mömin xüsusiyyətləri meyar alınmadan

qurulan belə bir romantik bağlılığın, Allahdan başqa bir ilah əldə etmək mənasını verdiyi isə Quranda açıqca ifadə edilmişdir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)**

**İbrahim dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız Od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz". (Ənkəbut surəsi, 25)**

Bu sevginin yönəldildiyi kəslər ümumiyyətlə, insanın ailəsi, yaxın qohumları, köhnə yoldaşları, sirr dostları, sevgilisi kimi kəslərdir. Bu, qətiyyən imani bir təməli olmayan, yalnız nəfsin içindəki romantizm meyillərini təmin etməyi hədəfləyən bir sevgi növüdür. Yuxardakı ayələrdə də təsvir edildiyi kimi, cahil cəmiyyətindəki sevgi anlayışı tamamilə bu şəkildədir.

Bir insan cahil cəmiyyətini tərk edib, iman etdiyi anda, bu pislikləri kökündən təmizləmədən müvəqqəti üsullarla örtərək şüuraltına sıxışdırmaq, bunları görməzlikdən gəlmək ya da xaricə yansıyan əlamətlərini aradan qaldırmağa çalışmaq heç vaxt qəti bir həll deyil. Çünki şüuraltına, ürəyin dərinliklərinə basdırılan bu pisliklər zamanla yığılıb əvvəl-axır partlama şəklində çölə çıxacaq. İnsan bunları gizlətməyə çalışmaqla yalnız özünü aldadar, çünki **"Şübhəsiz ki, Allah ürəklərdə olanları biləndir."** Bu sevgi anlayışını da geridə buraxar. O, artıq, insanları əvvəl olduğu kimi, mənfəətlərinə və ya ehtiraslarına görə deyil, Allah üçün sevməyə borcludur. Ancaq, iman etdikdən sonra ürəyində imanın ləzzəti tam olaraq yerləşməmiş, Allahı və möminləri gərəyi kimi təqdir edib bütün sevgi anlayışını buna görə yönləndirməmiş olanlar, ürəklərindəki boşluğu keçmiş həyatlarından qalan romantik qırıntıları canlandıraraq doldurmaq istəyərlər.

Bu səbəblə, bu qəti bir həqiqətdir; insanın inkarçılara ya da möminlərə sevgi duyması, onun küfrə ya da imana olan yaxınlığının mütləq bir ölçüsüdür. Bu, Quranda çox açıq bir şəkildə vurğulanar. Bir ayədə, möminlərin küfrə olan dünyagörüşləri belə izah edilir:

**Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)**

Bir başqa ayədə isə, **"Ey iman edənlər, möminləri buraxıb kafirləri vəlilər etməyin. Öz əleyhinizdə Allaha açıq-aşkar olan qəti bir dəlil vermək istərsinizmi?" (Nisa surəsi**; 144) deyilir. Bu səbəblə, möminin küfrə sevgi bəsləməsi, inkarçılarla səmimi bir dostluq və yaxınlıq qurması, heç bir zaman qəbul edilə bilməz. Bunu edən insan, onlardan biri olmağı və onlarla eyni aqibətə uğramağı qəbul edir deməkdir. Bu həqiqət, "**... zülm edənlərə meyil göstərməyin yoxsa atəş sizə toxunar..." (Hud surəsi**; 113) ayəsiylə açıq bir şəkildə bildirilir.

Bütün bunlardan ötəri bir möminin şüurulu olaraq inkar edən bir insan və ya bir birliklə arasında bir sevgi bağı meydana gətirməsi ya da keçmiş həyatından qalmış bağları davam etdirməsi düşünülə bilməz. Ancaq qəflətdən ya da məlumat əskikliyindən qaynaqlanan bir səhv ola bilər. Bu vəziyyətdə də, aşağıdakı ayə, həqiqətən iman etmiş bir insanın qəflətini aradan qaldırmaq üçün kafi olmalıdır:

**Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar. (Mumtəhənə surəsi, 1)**

## Möminlərin olduğu mühitdən narahat olmaq

Nəfsinin arzularına uyan bir kimsə Allahın əmrlərindən əvvəl nəfsinin istəklərini yerinə yetirməyə çalışacaq. Ancaq nəfsinin əmrlərini möminlərin olduğu bir mühitdə yerinə yetirməsi, möminlərin reaksiya, müdaxilə və xəbərdarlıqlarına səbəb olacağı üçün bu mühitdə bunu bacara bilməz. Məsələn, nəfsi ona qürur və eqoizm etməyi,

nümayişi, özünü başqalarından üstün görməyi, itaətsizliyi əmr edər. Möminlər isə ona təvazökar və nəcib olmağı, Allaha qarşı itaətkar olmağı nəsihət edərlər.

Nəfsi ona Allahın sərhədlərini qorumamağı, ürəyinin istədiyi kimi davranmağı, zəifliyi, etidalsızlığı, məsuliyyətdən, fədakarlıqdan, infaqdan, Allah yolunda əziyyət və çətinliyə dözməkdən qaçmağı təlqin edər. Bunlar imanı tam olaraq oturmamış birinin nəfsinə son dərəcə zidd olan şeylərdir.

Bununla yanaşı, hərəkətlərinin davamlı göz qarşısında olduğunun və səhv bir hərəkət etdiyində xəbərdarlıq ediləcəyinin fərqindədir. Buna görə möminlərin arasında nəfsinin əmr etdiyi kimi rahat və tələsik bir şəkildə hərəkət edə bilməz. Etsə də bu vəziyyət dərhal diqqət çəkər. Səhvləri, əskikləri, davranış pozuqluqları dərhal təsbit edilib tənqid olunar, xəbərdar edilər. Bu da möminlər üçün böyük bir rəhmət və nemət olan Allahın bəyəndiyi və təriflədiyi bir mühitdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir. (Ali İmran surəsi, 110)**

Möminlərin olduğu bir mühitdə kimsənin başçılıq etməsinə icazə verilməz, kimsənin razılığı güdülməz, idarə edilməz. Çünki əks bir davranış həm qarşı tərəfin axirətini təhlükəyə atmaq, həm də möminlərin arasında küfrün təcəllilərini saxlamaq mənasını verəcək...

Buna görə insanın ürəyini qırmamaq, onu gücəndirməmək üçün onun Qurandan kənar rəftar və davranışlarına göz yummaq, ilahi deyil ancaq şeytani bir mərhəmət forması olar. Şeytani mərhəmət də yalnız küfrə xas romantik zehniyyətin bir məhsuludur. Möminlərin mühiti isə son dərəcə ağıllı və həqiqidir. Məhz belə bir mühitdə, kafi imani dərinliyi təmin edə bilməmiş, Allah ilə lazımlı yaxınlığı qura bilməmiş, eqoizmini tərk edə bilməmiş kəslərin nəfsləri vicdanlarına qalib gələrək onları bu mühitdən qoparıb ağıllarına gələn hərəkəti etməyə məcbur edər.

Seçimini nəfsinin rahatlığı, mənfəəti istiqamətində istifadə edən bir kimsə də, nəfsi kimsəyə hesab vermək istəmədiyi, hər kəsdən müstəqil, özbaşına və idarəsiz qalmaq istədiyi üçün çölü, küfr mühitini bir qaçış, bir rahatlama mühiti olaraq görməyə başlayar. Belə bir insanda zamanla, istər-istəməz möminlərə qarşı bir yadlıq və uzaqlıq meydana gələr.

Mömin camaatı içərisində Allahın və dinin mənfəətləri həmişə ən ön planda tutular. Şəxslərin mənfəətləri isə sonradan gəlir. Onsuz da səmimi və ixlaslı möminlərin hamısı Allah yolunda canlarını və mallarını satmış, yalnız axirət yurdunu axtaran kəslərdir. Bu səbəblə, "Allahın əsirgədiyi xaricində var gücüylə pisliyi əmr edən" nəfsləriylə əlaqədar əhəmiyyətli bir problemləri yoxdur. Olsa belə, buna qarşı digər möminlərdən gələcək öyüd və xəbərdarlıqları bir rəhmət, hidayət və pislikdən təmizlənmə olaraq görərlər. Bacı/Qardaşlarına olan sevgi və bağlılıqları artar.

Buna qarşı, əgər bir insan o biri yolu seçmək istəyirsə, önü açıqdır. Quran, getdiyi istiqaməti belə təyin edər:

**Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir. (Nisa surəsi; 115)**

# Şeytanın küfrlə birlikdə olmağa təşviq edən mənfi təlqinləri

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi; 200, 201)**

**Ey insanlar! Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu dünya sizi aldatmasın, tovlayan şeytan da sizi yoldan çıxartmasın. Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır. (Fatır surəsi; 5, 6)**

Möminlərin imtahanları yalnız nəfsləriylə deyil, eyni zamanda bu nəfsi təhrik edib qızışdıran, onu azdırmaq məqsədiylə son dərəcə təfərrüatlı plan və tələlər quran, ona hiyləgərcəsinə təlqinlər verən şeytanla da olur. Nəticədə, möminin qarşısında həm öz nəfsi, həm də nəfsinin şeytanlarla ortaq şəkildə olan fəaliyyəti vardır. Bu səbəblə, hz. Adəmdən etibarən insanların əsas düşməni olan və Quranda çox geniş olaraq toxunulan İblis və onun köməkçilərini bu mövzuda gözardı etmək onların oyununa gəlmək olar.

Şeytanın xüsusilə mövzumuzla əlaqədar istifadə etdiyi təlqin və vəsvəsələrə toxunmazdan əvvəl, onun ümumi üsullarına, möminlərə qarşı dünyagörüşünə qısaca nəzər salmaq faydalı olar. Quranın "şeytanın dəstəsi" olaraq təyin etdiyi inkarçılar onsuz da doğru yoldan azmış və şeytana tabe olmuş bir qövm olduqları üçün, şeytanı əsl narahat edən möminlərin vəziyyətidir. Möminlərin, imanları səbəbiylə özündən üstün olmalarını həzm edə bilməz. Özünün Allah qatında qınanmış, qovulmuş, alçaldılmış, lənətlənmiş və əbədi olaraq cəhənnəmə məhkum olmuş, möminlərin isə təriflənmiş, yüksəldilmiş və cənnətlə müjdələnilmiş olmalarını qüruruna sığdıra bilməz. Buna görə ən çox cəhdi və mübarizəni, sonsuz bir kin və qısqanclıq bəslədiyi möminləri azdırmaq və onları doğru yoldan çıxararaq özü kimi cəhənnəmlik etmək üçün sərf edər. Quran, şeytanın bu cəhdini belə izah edir:

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17)**

Şeytan, başda möminlərin nəfslərinə xoş gələn şeyləri istifadə edərək onları azdırmağa, üsyan və günahı bəzəkli və cazibədar göstərməyə çalışar. Bunda müvəffəqiyyətli ola bilməzsə, bu dəfə də günah və pislikləri zərərsiz və qanuni bir örtükdə təqdim edərək möminləri aldatmağı sınayar. Bundan da bir nəticə əldə edə bilməzsə, yuxarıdakı ayədə söylədiyi kimi möminlərin doğru yolları üzərinə oturub onlara sağ yanlarından yaxınlaşar. Bu üsulla, Allahın razı olmadığı şeyləri din adına, Allah adına edilməsi lazımlı şeylərmiş kimi təlqin edər; tamamilə eqoist olan hərəkətləri xidmət, ibadət pərdəsilə etdirməyə çalışar. Bu sonuncu hiylənin digərlərinə görə, hiyləgər və ağlı qarışdırıcı istiqaməti daha çoxdur. Bu səbəblə, insanlar, şeytanın Allah ilə aldatmasına qarşı Quranda xüsusi olaraq xəbərdar edilərlər:

**Ey insanlar! Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu dünya sizi aldatmasın, tovlayan şeytan da sizi yoldan çıxartmasın. Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. O öz tərəfdarlarını Od sakini olmağa çağırır. (Fatır Surəsi; 5, 6)**

Allahın xəbərdarlığını diqqətə almayıb fərqində olmadan şeytanın bu tələsinə düşənlərin çox ürəkaçıcı olmayan vəziyyətləri digər bir ayədə təsvir edilərkən, möminlər də dolayısilə yoldan təkrar xəbərdar edilərlər:

**Münafiqlər onları haraylayıb deyəcəklər: “Məgər biz sizinlə birlikdə deyildikmi?” Möminlər deyəcəklər: “Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı. (Hədid surəsi, 14)**

Görüldüyü kimi, ayədə bəhsi keçən kəslər dünyadaykən özlərini möminlərlə birlikdə sandıqları halda, həqiqətdə şeytanın tələsinə düşmüş, aldanmış və axirətdə özlərini möminlərdən çox fərqli bir mövqedə görərək qarışıqlığa düşmüşlər. Lakin, çox təəssüf ki, artıq iş-işdən keçmiş, özlərinə verilən müddət dolmuş və bu vəziyyətlərini düzəltmə imkanları qalmamışdır.

Kitabın əvvəlində araşdırmaqda olduğumuz, "zəif imana sahib kəslərin eqoist məqsədlərlə küfr mühitinə girmələri" mövzusuna gəlincə, bu, şeytanın, az əvvəl saydığımız hiylə və oyunlarının hamısını səfərbər etdiyi bir mövzudur. Çünki bu mövzu şeytanın bu cür kəsləri öz tərəflərinə çəkməsi və öz dostlarının arasına qatması

üçün müraciət etdiyi ən can alan üsulu təşkil edər. Şeytan bu üsulla onları daha əvvəl yoldan çıxarıb özünə bağladığı inkarçıların arasına salaraq onların möminlərdən uzaqlaşmalarını və küfrlə yaxınlaşmalarını təmin etmək istəyər. Onların nəfslərini təhrik edib azdıraraq, Allahın sərhədlərini tapdalamalarına və bunu zamanla vərdiş halına gətirərək dindən tamamilə uzaqlaşmalarına zəmin hazırlayar.

Bu pis nəticəyə düşməmək üçün ən başda şeytanın hiylə və tələləri, təlqin metodları haqqında məlumat sahibi olmaq, hazırlıqsız və qafil olaraq ovlanmamaq lazımdır. Sonrakı səhifələrdə, şeytanın mövzumuzla əlaqədar təlqinlərini araşdıracağıq.

## "Qanuni göstərmə" təlqini

Qəflət və tənbəllik anlarında nəfs, haram olmayan ancaq faydası da olmayan, "boş" işlərlə insanı məşğul etmək istəyər. Bunlar, məsələn, küçəyə çıxıb boş və məqsədsiz bir şəkildə vaxt öldürmək, yaxşı avtomobillər istifadə etmək, gözəl geyinib əyləncə yerlərinə getmək ya da bənzəri hərəkətlər ola bilər. Bunlara nəzər saldıqda həqiqətən də qanuni, halal hərəkətlərdir. Şeytan da ən çox, hadisənin bu "qanuni görünmə" istiqamətini istifadə edər.

Mövzunun başından bəri toxunduğumuz kimi möminin, sahib olduğu mövqe, məsul olduğu fəaliyyət göz önünə alındığında, hər an hər qanuni hərəkəti etməsi qanuni olmaz. Mömin, yer üzündə Allahın xəlifəsidir və həyatı boyunca Allah tərəfindən özünə ayrılmış bir vəzifəsi və mübarizəsi vardır. **"(Yer üzündə) Fitnə qalmayıncaya qədər onlarla döyüşün..." (Bəqərə surəsi**; 193) ayəsi, bu mübarizənin məqsədini və əhatə dairəsini çox yaxşı açıqlayar. Bu döyüşün indiki zamanda fikir və düşüncə səviyyəsində reallaşması lazım olduğu açıqdır. Ayədə nəzərdə tutulan fitnənin bu gün bütün yer üzünü bürüdüyü diqqətə alınsa, möminin iyirmi dörd saatını bu əsas vəzifəyə görə planlaması vacibdir. Quranda ifadə edilən bütün ibadətləri də əhatə edən bu mübarizə proqramı, onsuz da möminə boş və məqsədsiz keçirə biləcəyi bir zaman buraxmaz.

Bu səbəblə, möminin hər zaman hər qanuni şeyi edə bilməsinə onsuz da texniki baxımdan imkanı yoxdur. Çünki belə bir axtarışla məşğul olması, onun əvvəlcə zəruri olan şeyləri etməsinə maneə törədəcək. Qaldı ki, bu cür axtarışlara küfr mühitində girməyə cürət etmək hadisənin ciddiliyini çox daha irəliyə aparar.

Şüurlu, ağlı başında bir mömin də, yerinə yetirməli olan bu qədər məsuliyyətin arasında bilə-bilə küfrün arasına qarışıb nəfsinin sərhədsiz arzularını təmin etməklə məşğul olmasının nə qədər böyük bir vicdansızlıq olacağını dərk edər. Onsuz da, bu dünyada çox qısa zaman qalıb, getməli olan yerə gedəcəyini bilər. Dünyada özünə verilən zamanı qənimət bildiyindən, onu ən yaxşı şəkildə istifadə etməyə çalışar. Kiçik eşqbazlıqlara meyil etməz.

## "Azadlığın məhdudlaşdırıldığı" təlqini

Şeytan yuxarıdakı üsulla müvəffəqiyyətə çata bilməyincə, möminə başqa bir istiqamətdən yanaşıb ona dini yaşamanın, Allaha və Rəsuluna itaət etmənin, insanın azadlığını, müstəqilliyini məhdudlaşdırıcı bir həyat tərzi olduğunu pıçıldamağa başlayar. İnkarçıların nə qədər azad və özbaşına yaşadıqlarını, diləsə onun da elə yaşaya biləcəyini təlqin edər. Şeytanın bu yalnız göz aldatmağa istiqamətli, bəzəkli təlqinlərinə qapılmamaq üçün ən əvvəl hadisələrin və anlayışların Qurana bağlı təsvirlərini bilmək lazımdır. Burada, bəhsi keçən "azadlıq" anlayışı da bunlardan biridir.

Qurana baxıldığında möminin, canını, malını Allaha satmış, Ona tamamilə təslim olmuş, yalnız Onun məmnuniyyətini axtaran və əsl yurdu olan axirəti anan bir kimsə olduğu görülər. Buna görə azadlıq anlayışı da möminin bu dünyagörüşü içində qiymətləndirilməlidir. Mömin üçün azadlıq, kafirlərin anladığı kimi Allahın sərhədlərini tapdalamada, həqiqətdə köləsi halına gəldiyi nəfsinin və digər saysız bütlərinin əmrlərini yerinə yetirmədə sahib olunan bir azadlıq deyil. Möminin azadlıq anlayışı, 24 saat açıq havada gəzməyi, məqsədsiz və mənasız rəftarlar sərgiləməyi də ehtiva etməz. Bu mənada küçədəki itlər, sudakı balıqlar, havadakı quşlar hər kəsdən daha azaddır, amma bu azadlıq onların "quş beyinli" olmalarına, heyvanlıqdan çıxmalarına çarə deyil. Küçə avaraları, əyyaşlar da tamamilə azaddırlar; istədikləri zibillikdə, bəyəndikləri körpünün altında yata bilər, dilədikləri kimi qışqırıb-çığıra bilərlər. Halbuki, əlbəttə ki, dəyər daşıyan azadlıqlar bunlar deyil.

Əsl azadlıq, ancaq əsl din tam mənasıyla yaşandığı təqdirdə əldə edilə bilər. Allahın əmrlərini güdmədən, yalnız nəfsinin istək və arzuları istiqamətində yaşayan bir insan özünün azad bir insan olduğu hissinə qapıla bilər. Çünki imanın və Allaha təslimiyyətin gətirdiyi əsl azadlığı dadmadığı üçün möminlər kimi müqayisə etmə imkanı yoxdur.. Halbuki, dindən qaçıb dindənkənar bir həyatı mənimsəyərək azadlığına qovuşacağını sanan insan, əslində tabe olduğu dindənkənar sistemin onu

uymağa təhrik etdiyi bir çox məcburedici, məhdudlaşdırıcı və qadağan edici qaydalarıyla zəncirlənib çoxdan azadlığını itirmişdir belə. Artıq, bu dindənkənar sistemdə həyatını davam etdirə bilməsi üçün bu sistemin qaydalarına, adamlarına, müdirinə, işçisinə, atasına, sevgilisinə və s. Quranda heç yeri olmayan, ancaq cəmiyyətin zamanla meydana gətirdiyi adət və ənənələrə, saysız ictimai sanksiyalara, Allahın ondan istəmədiyi amma öz fanatizmindən ötəri özünə qoyduğu prinsiplərə uymaq məcburiyyətindədir. Nəticədə, Allahın qulu olmaqdan çıxıb, minlərlə saxta ilahın (bütün) əmrinə girər. Ayədə belə deyilir:

**Bir çarə tapmaları üçün müşriklər Allahdan başqa məbudlar qəbul etdilər. Amma məbudlar onlara heç bir kömək edə bilməzlər. Hərçənd ki, onlar bunlar üçün hazır durmuş əsgərlərdir. (Yasin surəsi; 74,75)**

Bu dindənkənar sistemin əsiri, köləsi halına gəldiyini bilsə də, bunu etiraf etməyi qüruruna sığışdıra bilməz. İçində olduğu vəziyyəti, təcrübə və yetkinlik sahibi bir filosof ədasıyla "həyatın həqiqətəri" olaraq tərif edər. Həqiqət olduqları doğrudur, lakin bunlar həyatın deyil, "küfrün həqiqətləri"dir. Yaşadıqları, başlarına gələn hər şey Allahın küfrə dünyada və axirətdə vəd etdiyi ağrılı həqiqətlərin yalnız çox kiçik bir hissəsidir. Halbuki, həyatın başqa həqiqətəri də vardır. Bunlar da "imanın həqiqətləri"dir. Küfrün həqiqətlərindən isə çox fərqlidir. Möminin, imanın həqiqətləri üzərinə qurulu həyatının da təbii olaraq küfrün əzab dolu həyatıyla heç bir bənzərliyi yoxdur.

Din hər zaman, cəmiyyətin və insanların adam üzərindəki saysız təzyiqlərini, sanksiyalarını, istiqamətləndirici qaydalarını, hətta adamın öz-özünə qoyduğu qaydaları, prinsipləri, hər cür fanatizmi və mənfi təlqini qırar, yox edər. Bunu da Quran və Onunla hökm edən elçisi vasitəsiylə reallaşdırar:

**... Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır”. (Əraf surəsi, 157)**

Digər əhəmiyyətli bir nöqtə də azadlıq anlayışının fiziki olaraq deyil, həqiqətdə ruhi bir anlayış olmasıdır. Azadlıq əsl olaraq, Allahın insanın ruhuna və ürəyinə hiss etdirdiyi genişlik, fərahlıq, güvən və hüzur duyğularının hamısıdır. Bu da insanın

imanı, təqvası, təvəkkül və təslimiyyəti ilə bilavasitə əlaqəlidir. Bir ayə, bu metafizik vəziyyəti belə açıqlayar:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)**

"İman etməyənlərin köksünün dar və sıxıntılı qılınması", onların azadlıqlarını təməlindən yox edən bir vəziyyətdir. Hər nə qədər görünüşcə fiziki azadlığa sahib olsalar da, bu haldaykən o azadlığın dadını bilməz, xoşbəxt və hüzurlu yaşaya bilməzlər. Buna görə, bir kvadrat metrlik bir zindanda Allahın ürəyinə hüzur və genişlik verdiyi bir mömin olmaq, özünü azad zənn edərək dağ-dərə gəzən, sərhəd tanımayan, Allahın da ürəyini daraltdıqca daraltdığı, sıxdıqca sıxdığı bir inkarçı olmaqdan, şübhəsiz çox daha xeyirlidir.

Peyğəmbər dövründə, başlanğıcda nəfslərinə uyaraq döyüşdən geri qalan üç müsəlmanın ürəklərinə Allah tərəfindən bir xəbərdarlıq olaraq verilən sıxıntı və darlıq da, fiziki azadlığın ruhi azadlıq olmadıqca heç bir məna ifadə etmədiyinin ən gözəl nümunəsidir:

**Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. (Tövbə surəsi, 118)**

Bura qədər izah etdiklərimizdən möminin dünyada zindan həyatı yaşayacağı, lakin bundan məmnunluq duyması, bütün gün evdə oturub darıxdırıcı mühitlərdə olması, bir tikə, bir jiletlə idarə etməsi lazım olduğu kimi zidd mənalar çıxarmaq da insanı şeytani bir pessimizmə sürüyər. Nəzərdə tutulan şey müəyyəndir: Mömin hər anını Allahın məmnuniyyətinə ən uyğun hərəkəti edərək qiymətləndirməli, nəfsinin arzularını təmin etmək üçün Allahın sərhədlərindən heç vaxt güzəştə getməməlidir. Allah onu illərcə zindanda da saxlasa, dünya hakimi də etsə Allaha olan bağlılığından, təqvasından, imanından və əxlaqından heç bir şey itirməməlidir.

Əsl mömin, bu dünyadakı hər nemətin, hər çətinliyin, hər mühitin, hər vəziyyətin özünün necə davranacağının sınanması üçün yaradıldığını bilər. Küfr isə,

hər nə qədər görünüşcə rifah içində, sərhəd tanımaz bir həyat sürsə də sonunda, **"Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!" (Furqan; 13-14)** ayələrində ifadə edilən aqibətə uğrayacaq. Mömin, özünü azad zənn edən küfrün, azadlığını axirətdə əbədi olaraq itirəcəyini, dar bir məkanda sonsuza qədər həbs olunacağını bilər.

Buna qarşılıq olaraq mömin, sonsuz azadlığa qovuşacaq. Quran, bu vəziyyəti belə açıqlayar:

**Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 21)**

## "Küfrün əlindəki nemətlərdən məhrum qalındığı" təlqini

Şeytan möminə, küfrün əlində olan bəzi nemətləri möminlərlə birlikdəykən hər zaman dada bilməyəcəyi, onları əldə edə bilməyəcəyi, onlardan məhrum qalacağı, bir daha qarşısına belə gözəl fürsətlər çıxmayacağı, buna görə də bunları əldə etmək üçün zaman-zaman küfrə yanaşması lazım olduğu kimi təlqinlər verə bilər.

İmanı zəif olanlara bəlkə bu cür vəsvəsələr təsir edə bilər. Halbuki ixlaslı mömin, **"Şeytan, sizi kasıblıqla qorxudur və sizə çirkin -həyasızlığı əmr edir. Allah isə, sizə özündən bağışlama və bol lütfkarlıq (fəzl) vəd edir. Allah (rəhmətiylə) geniş olandır, biləndir."** (Bəqərə surəsi, 268) ayəsinin hökmüylə ürəyində belə məhrumiyyət narahatlıqlarına yer verməz. Hadisələrin tamamilə Allahın idarəsində olduğunun şüurundadır.

Hətta, küfrü və cahil cəmiyyəti tərk etmənin, onlardan qopub-ayrılmanın məhrumiyyətə deyil, tam tərsinə Allahın rəhmətinə və nemətinə qovuşmağa vəsilə olacağına dair Quranda çoxlu nümunələr vardır. Bunlardan Kəhf (mağara) əhlinin vəziyyəti də belədir:

**Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın (Kəhf surəsi, 16)**

Hz. İbrahim üçün də eyni vəziyyət baş vermişdir:

**Mən sizi və Allahdan başqa sitayiş etdiyiniz bütləri tərk edir və öz Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə dua etməklə heç vaxt bədbəxt olmayım". İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik. Biz onlara öz mərhəmətimizdən əta etdik və gələcək nəsillər həmişə yada salsın deyə onlara yaxşı ad qismət elədik. (Məryəm surəsi, 48-50)**

Ayrıca Allah, şirk qoşmayan, ixlaslı möminlərə axirətdə olduğu kimi dünyada da nemətindən bol-bol verəcəyini vəd etmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər - məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Əgər bir insan həqiqətən iman edib saleh əməllər edərsə və Allaha heç bir şeyi şərik qoşmursa, bu ayənin işarəsinə görə onsuz da dərd və narahatlıq edəcək heç bir şeyi olmamalıdır. Bu səbəblə, ağıllı bir mömin, kiçik mənfəətlərə tamah edərək Allahın bu vədlərinə qovuşmağı riskə atmaz.

Münafiq xarakterli olanlar isə, möminlərin əksinə, zamana qarşı səbirsiz olduqlarından, gələcək narahatlığı, yaşlılıq qorxusu, etdikləri hesabların tutmaması, gözlədiklərinin təxmin etdikləri müddətdə çıxmaması kimi səbəblərlə, bir müddət sonra dünyalarını qurtarma axtarışına girərlər. Allah bu münafiq zehniyyətini belə təsvir edər:

**Sən qəlbində xəstəlik olanların: "Qorxuruq ki, başımıza bir fəlakət gələ" - deyərək onların Kitab əhli arasında vurnuxduqlarını görürsən. Ola bilsin ki, Allah**

**qələbə bəxş etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən peşman olsunlar. (Maidə surəsi, 52)**

İlk əvvəl, mömin görünüşündə digər möminlərlə birlikdə hərəkət edən münafiqlər, zamanla İslam fəaliyyətindən dünyəvi bir qazanc əldə edə bilməyəcəkləri narahatlığına qapılıb geridən geriyə dönərlər. O ana qədər mömin birliyi içində keçirdikləri müddəti də boş bir aldanış olaraq görərlər. Zamanın münafiqlər üzərindəki bu bezdirici təsiri başqa ayələrdə də müxtəlif istiqamətlərdən toxunular:

**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" – deyirdilər. (Əhzab surəsi, 12)**

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

Münafiqlərin tam tərsinə, saleh bir mömin onsuz da "şübhəsiz olaraq (axirətdəki əsl) yurdu düşünüb-anan ixlas sahibləri (Sad; 46)"-ndən olduğu üçün bütün həyatı boyunca əziyyət çəkəcəyini, yoxsul qalacağını, çətinliklərlə mübarizə edəcəyini bilsə belə Allahın yolundan dönməz, Allahın razılığının ən çoxunu güdməkdən heç bir zaman güzəştə getməz. Allah lazım olsa, mömini sınamaq, onun günahlarını bağışlamaq, axirətdəki mövqesini yüksəltmək, ruhunu incəltmək, ürəyindəki pislikləri təmizləmək və onu təmizləmək üçün bütün ömrü boyunca çətinlik, darlıq və əziyyət də verə bilər. Bu vəziyyətdə belə səmimi mömin, Allahın rəhmətindən ümidini kəsərək müvəqqəti mənfəət və zövqlər üçün, küfrə, dünyaya ən kiçik bir meyil göstərməz, səbir edər, Allahın özü üçün yazdığını istəyər. Qədərinə razı olar.

## Monoton həyat təlqini

Müəyyən şərtlər altında, saf niyyətlə edilən bir hərəkət zamanla vərdiş halına gələ bilər. Bu vəziyyətdə insan, haqqında danışılan hərəkəti, gərək qalmadığı təqdirdə də davam etdirmək istəyər. Halbuki, Allahın razılığının ən çox olduğu davranış

forması, fərqli zaman və şərtlərə görə dəyişə bilər. Ağıllı mömin də həmişə dəyişə bilən bu şərtləri qiymətləndirərək, ən ideal hərəkət və davranış tərzini qavrayıb tətbiq edən mömindir. Ağlını istifadə etməyə vərdiş etməyən kəslər isə, hər vəziyyətdə müəyyən sabit davranış qəliblərini tətbiq edər, bunun müvəffəqiyyətsiz nəticələrindən də ibrət götürməzlər.

Bir gün İslamın mənfəətinə olan bir işi, başqa bir gün yenidən etmək olduqca boş və mənasız ola bilər. Bunun kimi, müəyyən zamanlarda gedilməli bir yerə həmişə getməyi vərdiş halına gətirmək, tamamilə zaman itkisinə səbəb olar. Şeytan da düşünmə və ağlını işlətmə tənbəlliyi ilə əziyyət çəkən kəslərə bu yolla vəsvəsə verər. Onları nə İslama, nə də özlərinə fayda verməyən, əksinə zərər gətirən, əhəmiyyətsiz, cansıxıcı və qəlibləşmiş işlərlə məşğul etməyə çalışar. Onlara bu etdiklərini faydalı və lazımlı şeylərmiş kimi göstərib möminləri əsl hədəflərindən, əsas mövzulardan uzaqlaşdırmağa, onları passivləşdirib, geri buraxaraq İslam fəaliyyətini baltalamağa çalışar. Onları bu şəkildə, küfrlə və küfr sistemiylə boş yerə qaynayıb-qarışacağı mühitlərə tez-tez salaraq imani dərinliklərinin azalmasını, küfrün bol mənfi təlqinlərinə məruz qalıb mənəvi istiqamətdən çökmələrini istəyər.

Qurana görə hərəkət edən, onun əmr və qadağalarına uyan bir möminin onsuz da ağlı və şüuru son dərəcə açıq olar. Buna görə, Şeytanın tələlərinə aldanaraq şüurunun qapalı olduğunu hiss edən bir insan əvvəlcə bütün işlərini buraxıb mövcud vəziyyətdən və "qovulmuş şeytan"dan Allaha sığınmalıdır. Daha sonra səmimi analiz edib, özündə bu vəziyyəti meydana gətirən səbəbləri tapmalıdır. Bunlar, Allah ilə olan mənəvi əlaqəsində, Qurana uymasında, Allahın sərhədlərini güdməsində ortaya çıxan nöqsan və zəifliklərdir. Bunları düzəldə bilmək üçün Allaha dua etməli, yalvarmalıdır. Çünki düşdüyü anormal ruh halından xilas olması, "şeytanın pisliklərini" üzərindən atması, ağlını qurtarması, o halıy ilə edəcəyi bütün işlərdən daha çox əhəmiyyətlidir. Çünki Peyğəmbərimizin dediyi kimi, "ağlı olmayanın dini yoxdur". Dini olmayanın da axirətdəki mövqeyi müəyyəndir: Quranın ifadəsiylə, **"işləmiş, boşuna yorulmuşdur." (Ğaşiyə surəsi, 3)**

## "Tədbirli olma" təlqini

Bu, ümumiyyətlə, İslamiyyətlə yeni tanış olan kəslərdə rast gəlinən və İslamdan kənar bir həyatı mənimsəmiş olan yaxınlarından və əvvəlki əhatəsindən reaksiya alma,

əziyyət görmə qorxusuna əsaslanan bir təlqindir. Şeytan, insandakı bu cür zəiflikləri istifadə edərək, onu köhnə dostlarıyla, ətrafıyla daima birlikdə tutmaq və onların dindənkənar təlqinlərinə məruz buraxmaq istəyər. Bunu təmin etmək üçün, insana, "köhnə əhatənə qarşı gözə batmamaq üçün onlarla da vaxt keçirməlisən" şəklində vəsvəsələr verə bilər.

Həqiqətən də, insanın müsəlman olmasından ötəri yaxın ətrafından maddi və ya mənəvi zərər görmə ehtimalı varsa, ya da dinin mənfəətləri elə tələb edirsə, Quranın ölçüləri içərisində müxtəlif tədbirləri alması lazımdır. Bu cür bir istisnaya aşağıdakı ayədə də yer verilmişdir:

**Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır. (Ali İmran surəsi, 28)**

Quranda müəyyən şərtlər altında küfrə qarşı tədbir görülməsi istiqamətində-özünü bəlli etməmə, imanını gizlətmə kimi-çoxlu nümunələr vardır. Təbii bunların tətbiq olunma şəkilləri də küfrün davranış tərzinə, azğınlığına görə dəyişər. Burada əhəmiyyətli olan aradakı tarazlığı çox yaxşı qura bilməkdir. Nə ucuz qəhrəmanlıq sevdasıyla lazımsız gərginliklər, süni problemlər yaradılmalı, nə də tədbir adı altında küfrlə səmimi olunmalıdır. Yalnız ibadət məqsədi davranmalı və lazımlı olan müddətdən bir dəqiqə belə çox onlarla birlikdə vaxt keçirməməyə diqqət göstərməlidir.

Əvvəl tədbir məqsədiylə başlayıb sonra hal, rəftar, davranış və düşüncə olaraq küfrün quruluşundan təsirlənməyə, narahatlıq duymamağa, hətta daha da sonrası küfrə qarşı emisional bir yaxınlıq duymağa başlamaq isə, hadisənin rəhmani ölçüdən çıxıb şeytani ölçüyə girdiyinin ən böyük əlamətidir.

Hər şeydən əvvəl, alınan tədbirin növü nə olursa olsun, həyati bir təhlükə ya da əhəmiyyətli bir fiziki zərər görmə vəziyyəti olmadığı müddətcə bu, Allahın fərz və ya haram etdiyi mövzuları pozmağa bir səbəb ola bilməz. Burada mömin sınanıldığını, ən gözəl şəkildə səbir edib köməyi Allahdan gözləməli olduğunu bilməlidir. Başda peyğəmbərlər olmaq üzrə Quranda nümunə verilən möminlərin çoxu yaxın ətraflarıyla imtahan edilmişlər, lakin Allahın dini mövzusunda güzəştə gedib zəiflik göstərməmişlər, onlara meyil etməmişlər. Digər möminlərin də mütləq küfrlə bu şəkildə sınanılacaqları və buna səbir etməli olduqları ayələrdə bildirilmişdir:

**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir. (Ali İmran surəsi, 186)**

## Xidmət təlqini

Şeytan, bu hissənin əvvəlində də izah etdiyimiz kimi, bilavasitə azdıra bilmədiyi, Allaha üsyana sürüyə bilmədiyi kəsləri Allah və din adına azdırmağa çalışar. Bu, şeytanın ən hiyləgər hiylələrindən biridir. Necə ki, Allah, möminləri, "yalançıların Allah ilə aldatması"na qarşı diqqətli olmağa çağırar:

**... Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allahın əzabından arxayınlaşdırıb tovlamasın. (Loğman surəsi, 33)**

İnsan bəzi vəziyyətlərdə, din adına zənn etdiyi bir işdə, əslində tamamilə nəfsinin bəzi arzularını təmin etməklə məşğul ola bilər. Belə anlarda nəfs və onun ən böyük ağıl müəllimi olan şeytan bu istəkləri İslama xidmət örtüyünə bürümədə son dərəcə qabiliyyətlidirlər.

Allah möminin dünyadakı mübarizəsi əsnasında ona bir çox nemətlər verə bilər, onu nəfsinin xoşuna gələcək müxtəlif mühitlərə sala bilər. Mömin, fəaliyyət şüurunu itirmədiyi, niyyətini və ixlasını ən başdakı şəkliylə qoruduğu təqdirdə, Allahın qarşısına çıxardığı bu qanuni nemətlərdən zövq almasında, faydalanmasında heç bir qorxu yoxdur. Çünki Allahın verdiyi bu nemətlər onun Allaha daha çox şükür etməsi, Ona daha da yaxınlaşması üçün çox gözəl vəsilələrdir.

Ancaq başlanğıcda fəaliyyət üçün, dinin xeyiri üçün edilən bir hərəkət, bir müddət sonra məqsədindən aza bilər, fəaliyyətin imkanları və üsullarından qaynaqlanan bəzi nemətləri məqsəd halına gətirə bilər. Məhz bu nöqtədə, şeytanın tələsinə düşülər. Bu tələyə düşən insan, o işdən heç bir əcr qazana bilməyəcəyi kimi, Allah rizası bəhanəsiylə etdiyi bu işdən bütlərinə də (nəfsinə, istəyinə) pay ayırar və

şüurunda olmadan Allaha şirk qoşmaq kimi ağır bir günahı işləmiş olar. Yüz faiz Allahın razılığının güdülmədiyi, eyni anda bütlərin də razılığının güdüldüyü ibadət görünüşündəki bir işin Allah qatındakı vəziyyəti və nəticəsi ayədə konkret bir bənzətməylə açıqlanmışdır:

**Onlar Allah üçün Onun yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz batil iddialarına əsasən: "Bu, Allah üçündür, bu da şərik qoşduqlarımız bütlər üçündür" - deyirlər. Şərikləri üçün ayırdıqları pay Allaha çatmır, Allah üçün ayırdıqları pay isə şəriklərinə çatır. Onların verdikləri hökm necə də pisdir! (Ənam surəsi, 136)**

Daha əvvəl də təfərüatlı olaraq toxunduğumuz kimi, bir zərurət ya da Quranın göstərdiyi bir hədəf olduğu zaman əlbəttə küfr mühitinə girilər. Ancaq, Allah və din adı altında, işi xidmət örtüyünə bürüyərək bir sıra eqoist məqsədlər uğruna küfrün olduğu mühitlərə girməyə çalışmaq çox böyük bir səmimiyyətsizlikdir. İnsanın, şeytanın bu cür hiyləgər yumşaq keçidlərinə qarşı son dərəcə diqqətli olub, niyyətinə nəzarət etməsi, küfrün arasına girməyi həqiqətən Allah rizası üçünmü yoxsa istək və həvəsini təmin etmək üçünmü istədiyini səmimi olaraq öz nəfsində sorğulaması lazımdır. Əslində edilən işin ixlaslı yoxsa eqoist olduğunu hər kəs öz vicdanında bilər. Xalis möminlər də ilk baxışda bunu rahatlıqla anlayar, ona görə lazım olan rəftarı sərgiləyərlər.

## "İş işdən keçdi" təlqini

Bir əvvəlki hissədə toxunduğumuz ruh halının meydana gətirəcəyi ən böyük təhlükə, insanın zamanla özünə olan etibarını və səmimiyyətini itirməsidir. Bu güvən bir dəfə sarsılsa, bunun ardından, şeytanın müxtəlif vəsvəsələri ard-arda gələr. Şeytan, insana, "sən səmimiyyətsizsən, həqiqi bir mömin deyilsən" kimi təlqinlər verməyə başlayar. Bu psixologiya içində edilən bir səhv, bir-birinin ardınca gələn yeni səhvlərə gətirib çıxarar. Ara dildə "batdı balıq yan gedər" şəklində yekunlaşdırılan bu psixologiya, kiçik bir səhv etmiş olan bir insanı, qısa müddətdə böyük bir məhvə və daha böyük günahlara sürüyə bilər.

Halbuki, bu, şeytanın bir tələsidir. Qurana görə, bir insan nə qədər günah işlərsə işləsin, "geri dönülməz" bir nöqtəyə çatmaz. Bir başqa sözlə, zərərin harasından dönülsə kardır.

İnsan müxtəlif səbəblərdən ötəri nəfsinə uyaraq küfr mühitinə və həyatına meyil etmişsə dərhal səmimi olaraq tövbə edib bağışlanma diləməli, Allaha sığınıb dua etməlidir. Şeytan şübhəsiz bu vaxt, "iş işdən keçdi, artıq çox gecdir; bu qədər günahdan sonra qurtuluş olmaz; madam bu qədər günaha batdın heç olmasa haqqını ver" kimi müxtəlif vəsvəsələrlə o insanın tövbə edib doğru yola yönəlməsini maneə törətməyə çalışacaq. Halbuki, nə qədər pis bir vəziyyətdə olursa olsun səhvini bilib səmimi bir ürəklə Allahdan bağışlanma diləyən bir kimsəni Allah geri çevirməz. Bu, Allahın sonsuz mərhəmətinin bir gərəyidir:

**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin. Sonra sizə heç bir kömək olunmaz. Əzab sizə fərqinə varmadığınız bir halda qəflətən gəlməmişdən əvvəl Rəbbinizdən sizə nazil edilən ən gözəl Sözə tabe olun! (Zumər surəsi, 53-55)**

Allah sonsuz böyüklüyü ilə birlikdə sonsuz bir bağışlamaya malikdir. Bir insan tövbə edib günahından imtina edincə, onun köhnə pisliklərini bağışlayıb yaxşılığa çevirər. Quran, bu vəziyyəti belə ifadə edər:

**Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir! Kim tövbə edib yaxşı iş görərsə, o, doğrudan da Allaha tərəf qayıtmış olar. (Furqan surəsi, 70-71)**

İnsan əvvəldən bir neçə dəfə eyni günahı işləmiş olsa da, peşman olub yenidən tövbə edə bilər. Bu nöqtədən sonra, Allah, o insanda köklü xarakter dəyişikliyi yaradıb, onu çox daha üstün bir mövqeyə gətirə bilər. Allah münafiqlikdən belə peşman olub o mövqedə israr etməyənlər üçün tövbə qapısını açıq buraxmışdır:

**Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən. Tövbə edənlər, əməllərini islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir. Şükür**

**etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Allah itaətkar qullarına təşəkkür edəndir, Biləndir. (Nisa surəsi, 145-147)**

Allahın bu sonsuz bağışlayıcılığı həmişə ağılda tutulmalı və bunun rahatlığını yaşamalıdır. Ancaq burada incə bir xətt vardır. İnsan, heç bir zaman, "mən günah işləyim, necə olsa Allah bağışlayar" kimi yanlış bir məntiq inkişaf etdirməməlidir. Çünki Allahın bağışlaması, ancaq səmimiyyətlə mümkün olar. Halbuki, bəhs etdiyimiz məntiq tamamilə səmimiyyətsizlikdir. Bu cür bir məntiq, günahı və ixlassızlığı vərdişə çevirər. İxlassız hərəkətləri vərdiş halına gətirmək isə, insanı münafiqliyə sürüyər.

Qurana baxdığımızda, ixlassız bir davranışı, bilə-bilə vərdiş halına gətirmənin, Allahın əhəmiyyətli bir sərhədini israrla tapdalamanın, çox böyük bir təhlükə olduğunu görərik. Bu rəftarı göstərən insan, "onlar, özündən çəkindirildikləri "şeyi etməkdə israr edib baş qaldırınca" onlara: **"Alçaq meymunlar olun" dedik." (Əraf surəsi, 166)"** ya da cəhənnəm əhli üçün deyilən**, "Onlar, böyük günah üzərində israrlı davrananlar idi. (Vaqiə surəsi,** 46)" ayələrinin əhatəsinə girəcəyini unutmamalıdır. Dini tanıyıb öyrəndikdən sonra bu cür bir rəftar göstərərək küfrə düşmək, insanı digər inkarçılardan da aşağı bir mövqeyə sürüyər.

İxlassızlığı vərdiş halına gətirən insan, zamanla duyduğu vicdan əzabını ört-basdır edə bilmək üçün öz-özünü, etdiyi işin doğru olduğuna inandırmağa başlaya bilər. Və eyni şəkildə möminləri də aldatdığını, idarə etdiyini zənn edə bilər. Ayələrdə də bu vəziyyət belə təsvir edilir:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 9-10)**

"Mən küfrün yanında əylənərəm, sonra vicdanımı rahatlaşdırmaq üçün də möminlərin arasına dönərəm, gündəlik ibadətlərimi də edərəm" kimi ikili standart məntiqi də şeytanın ən əhəmiyyətli hiylələrindən biridir. Belə bir məntiqin Quranın ruhuna və hökmlərinə tamamilə zidd olduğu açıq şəkildə ortadadır. Quran belə kəsləri **"Arada tərəddüd edib dayanarlar. Nə onlarla, nə bunlarla. Allah kimi azdırsa, artıq sən ona yol tapa bilməzsən." (Nisa surəsi,** 143) ayəsiylə təsvir edər. Ayədə ifadə edilən xüsusiyyət də münafiq xüsusiyyətindən biridir. Bundan əvvəlki ayədə də bu yanlış zehniyyətə sahib münafiqlərin digər təyinedici xüsusiyyətləri sayılmışdır:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Bir insan ya müsəlmandır, ya deyil. Əgər özünə görə bir "qarışıq" meydana gətirməyə çalışar, İslamın xoşuna gələn yönlərini qəbul edib, nəfsinə ağır gələn yönlərinə üz çevirsə, "yarım müsəlman" olmaz, ya müşrik ya da münafiq olar. Bir ayə, bu kimilərinin vəziyyətini belə açıqlayar:

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)**

Bu yanlış zehniyyətə sahib olan münafiqlər, eyni üzsüzlüklərini sonralar da davam etdirəcək, özlərinin möminlərlə birlikdə olduqlarını iddia edəcək və **"(biz də) sizinlə birlikdə deyildikmi?"** (Nisa, 141) deyərək möminlərin müvəffəqiyyətindən pay almaq istəyəcəklər. Halbuki, Allah da, möminlər də kimin nə olduğunu bilirlər. Quran bu kimilər haqqında bu hökmü verər:

**Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: “Məgər biz də sizinlə deyildikmi?” – deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: “Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?” – söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

## Nəticə: Şeytanın hiyləsi zəifdir

Bu hissənin əvvəlindən bu yana, şeytanın möminləri azdırıb çaşdıra bilmək üçün istifadə etdiyi üsulları araşdırırıq. Ancaq şeytan nə cür kompleks üsullar izləyirsə

izləsin, bu üsulların, "yalnız" Allaha güvənən möminlər üzərində heç bir təsiri yoxdur. Quran, bu qaydanı belə bildirir:

**Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)**

Deməli, şeytanın bu cür hiylə və tələlərinə qapılanların, ən başda imanlarıyla əlaqədar əhəmiyyətli problemləri olduğu qətidir. "... **Heç şübhəsiz, şeytanın hiyləli-nizamı çox zəifdir" (Nisa; 76) və "Həqiqət budur ki, iman edənlər və Rəblərinə təvəkkül edənlər üzərində onun (şeytanın) heç bir məcburedici-gücü yoxdur". (Nəhl**; 99) hökmləri gərəyi, şeytan, heç də "qarşı çıxıla bilməz" bir gücə sahib deyil. Buna görə də, şeytanın bu dərəcə zəif hiylə və nizamlarına qapılanların imanlarının zəif olduğu ortaya çıxır. Necə ki, şeytanın özü də, ixlaslı və səmimi möminlərə vəsvəsə verib azdıra bilməyəcəyini etiraf edər:

**İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". (Hicr surəsi, 39-40)**

# Qanuni bir səbəb olmadan küfr mühitində olmağın zərərləri nələrdir?

**... Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" – deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir. (Ali İmran surəsi; 118,119)**

## Küfr mühiti maddi və mənəvi olaraq möminlərə sıxıntı verən bir mühitdir.

Daha əvvəl küfr mühitində də bir dərəcə estetika, gözəllik ya da keyfiyyətin ola biləcəyindən və nəfsin bunlardan zövq ala biləcəyindən danışmışdıq. Ancaq, bu estetika və gözəllik, bərabərində; küfrün pisliyini, səmimiyyətsizliyini, məqsədsizliyini, boş söhbətlərini, çirkin əxlaq və xarakterini də saxlayır. Bu mənfi xüsusiyyətlər, haqqında danışılan mühitin ilk baxışda rəngli, cazibədar və bəzəkli görünən yönlərini də örtər.

Qanuni-yəni Allah rizasına uyğun, dinə faydası olacağı açıq və nəfsani bir payın qarışmadığı-bir səbəb olmadıqca, Allahın xatırlanmadığı, hətta Allaha, Elçiyə və möminlərə qarşı kin və düşmənçiliyin bəsləndiyi, danışıldığı, hətta lağ edildiyi, Allaha üsyanın həyat tərzi halına gəldiyi bir mühitdə qalmaq mömінə yaraşmaz. Necə ki, Allah və din əleyhində danışılan mühitləri dərhal tərk etmək ayələrlə açıq şəkildə əmr edilmişdir:

**Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, günahkarlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır. (Nisa surəsi, 140)**

Küfrün pozulmuş və çirkin əxlaqı, ağılsızlığı, alçaq və bəsit xarakteri, pisliyi, süni və bənzətmə rəftarları, zilləti, eqoizmi, mənfəətçiliyi və fürsətçiliyi, Allahın sərhədlərini tapdalamada, nəfsinə xidmət etmədə yarış halında olması, israfı əyləncə halına gətirməsi və bunlar kimi bir çox cəhənnəmlik xüsusiyyəti ixlaslı bir möminin ruhuna və ürəyinə sıxıntı verər.

Bu cür bir mühitdə olan nemətlərdən zövq almağa çalışmaq zibilin içinə bulaşmış gözəl bir yeməkdən iştahlanmağa bənzər ki, yemək nə qədər gözəl olursa olsun, onu içində olduğu zibillə birlikdə görmək normal bir insanın mədəsini bulandırar. Kafirin də, **"Ey iman edənlər, müşriklər ancaq bir pislikdirlər..." (Tövbə surəsi, 28)** ayəsində ifadə edildiyi üzrə, bu zibildən ən kiçik bir fərqi yoxdur. Çünki kafir, o qədər dəlili gözardı edib Allahı inkar edən və öz nəfsini ilah edən kimsədir. Bu səbəblə, ikiüzlülük, nümayiş, saxtakarlıq, eqoizm, nankorluq, xainlik, vəfasızlıq, mənfəətçilik, təkəbbür, alçaq kompleksi kimi hər cür pisliyi də içində ehtiva edər.

Belə səfil və alçaq bir əxlaq quruluşunun hakim olduğu mühitlərdən əlbəttə, heç bir mömin zövq almaz və bu cür yerlərdə rahatlıq tapmaz. Möminlər ancaq Allahın adının xatırlanması ilə rahatlıq tapar və yalnız Allahın məscidlərində, yəni içində Allaha səcdə edilən, Allaha qulluq edilən məkanlarda özlərini hüzurlu hiss edərlər.

## Küfr hər zaman, gizli və ya açıqca, möminlərin düşmənidir. Küfrə güvənilməz

İnkarçıların imanlı bir insanı, onun mömin olduğunu bildikləri halda, səmimi bir şəkildə sevmələri, onun yaxşılığını istəmələri mümkün deyil. Çünki, "... Şübhəsiz kafirlər, sizin açıq-aşkar düşmənlərinizdir." (Nisa surəsi, 101) ayəsinin ifadəsiylə, küfrün möminlərə olan düşmənçiliyi vurğulanmışdır. Bununla yanaşı küfr, həmişə şüurlu ya da şüursuz olaraq, Quranın ifadəsiylə "şeytanın dəstəsi"dir. Şeytan isə "insanın açıq-aşkar bir düşmənidir". Bu, dəyişməz bir ilahi qanundur. Mömin bu qanuna uyğun olaraq vəziyyət almalı, Quranda deyildiyi kimi hz. İbrahimi nümunə götürməlidir:

**İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız**

**şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!"... (Mumtəhənə surəsi, 4)**

Buna görə küfr mühitində, dörd bir tərəfi düşmənlərlə əhatəli olan bir mömінin, heç bir zaman nə maddi, nə də mənəvi istiqamətdən zəmanətdə olduğu deyilə bilməz.

Öz aralarında belə səmimiyyətsiz, bir-birinə quyu qazmağa çalışan, daim arxadan çəkişdirən, ikiüzlü, hiyləgər, pis niyyətli, sərhəd tanımaz inkarçıların, ən böyük düşmənləri olan möminlərə qarşı laqeyd qalacaqlarını düşünmək böyük saflıq olar. Əgər dostca bir görünüş verirlərsə, bunun səbəbi, möminlərdə bir güc və çəkindiricilik görmələri, onlardan qorxmalarıdır. Bununla yanaşı, möminlərdə ən kiçik bir zəiflik gördüklərində, ayənin ifadəsiylə onlara "əllərini və dillərini pisliklə uzadacaqları" mütləqdir:

**Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər, əlləri və dilləri ilə sizə pislik edər və sizin kafir olmanızı istəyərlər. (Mumtəhənə surəsi, 2)**

İnkarçıların möminlərə qarşı bəslədikləri kin və nifrət digər ayələrdə də çox vurğulanar:

**... Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" - deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir. (Ali İmran surəsi, 118-119)**

**Çünki onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. Onda siz heç vaxt nicat tapa bilməzsiniz!" (Kəhf surəsi, 20)**

**Kafir olanlar öz elçilərinə dedilər: "Sizi ya öz torpağımızdan qovacağıq, ya da mütləq dinimizə qayıdacaqsınız!" Rəbbi də onlara belə vəhy etdi: "Biz zalımları mütləq məhv edəcək (İbrahim surəsi, 13)**

Allahın qanunları dəyişməz. Küfr, Allahın qanununa görə daim möminlərin düşmənidir. Bunun əksini düşünmək və iddia etmək isə, ya bu cür açıq və qəti olan ayələri rədd etmək, ya da təhlükə ölçüsünü aşmış dərəcədə saf olmaq mənasını verər.

Quranın heç bir yerində möminlərin inkarçılarla olan isti və səmimi bir bağlılığından, yaxınlığından söz edilməz. Tam tərsinə, Quranın hər yerində peyğəmbərlərin və möminlərin küfrə qarşı olan kin və nifrətləri, aralarındakı mübarizələri izah edilər.

## Küfr həmişə atəşə çağırar

İnkarçıların cəhənnəm üçün yanacaq olduğu Quranda ifadə edildiyinə görə belə bir "yanacaq"la yaxın və səmimi bir əlaqəyə keçmək isə olduqca təhlükəli olar. "Onlar sizin küfrə azmanızı qəlbən arzu etmişlər" ayəsində ifadə edildiyi kimi, inkarçılar özləri yandığı kimi möminləri də atəşə çəkməyə çalışarlar. Digər bir ayədə də, küfrün liderləri üçün, **"biz, onları atəşə çağıran öndərlər etdik..." (Qəsas,** 41) ifadəsi istifadə edilər. Bütün bunlardan, doğru yoldan azdırıb cəhənnəmə sürümənin, küfrün, xüsusilə də küfrün liderlərinin əhəmiyyətli bir xüsusiyyəti olduğu aydın olur. Necə ki, məhşər (diriliş) günü cəhənnəmə göndəriləcək olan xalq, küfrün liderlərinə **"siz gecə və gündüz hiyləli nizamlar (qurub) bizim Allahı inkar etməyimizi və Ona ortaqlar qoşmağımızı bizə əmr edirdiniz" (Səba; 33) deyəcəklər.**

Küfrə meyil göstərmək, sonun başlanğıcıdır. İnsan bilə-bilə küfrə meyil göstərməyə davam etdiyi təqdirdə, ağlı getdikcə qapanar. Sürətlə küfrün aləminə düşər. Allahı anmaqdan uzaqlaşar. Bu vəziyyətdə isə, **"Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar." (Zuxruf surəsi, 36)** ayəsi gərəyi, şeytan onu sarıb əhatə edər. Bu vəziyyət zamanla üzünə və rəftarlarına əks olunar. Baxışları dəyişər, getdikcə cahil cəmiyyətinin fərdlərinə bənzəməyə, onlar kimi süni rəftarlar göstərməyə başlayar. Təvəkkülsüz, narahat, əsəbi, təlaşlı və qürurlu bir ruh halına bürünər. Özünə olan etibarını və hörmətini, imanın özünə qazandırmış olduğu sevinc, hüzur və nəşəni itirər. Bu halıyla, təbii olaraq, ətrafındakı möminlərə də sıxıntı verməyə başlayar. Bu vəziyyətdəki şəxs vicdanının səsinə bir müddət də qulaq asmazsa, vicdanı getdikcə korlaşar. Bir müddət sonra vicdanının xəbərdarlığını duymaz hala gələr, ürəyi qatılaşar, dümdüz olan

yoldan çıxmış olar. Cahil cəmiyyətin hər hansı bir fərdindən fərqlənməyən vəziyyətə düşər.

Qısacası, əvvəldə ifadə etdiyimiz kimi, küfrə meyil göstərmək, nəticədə onlardan biri olmağa qədər gedən bir zəncirin ilk halqası, yəni sonun başlanğıcıdır. Bu səbəblə, Quran, iman edənlərin kiçik və ya böyük hər hansı bir mövzuda küfrə tabe olmalarının doğuracağı böyük təhlükəni, əvvəlcədən qəti bir dillə xəbər verər:

**Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi geriyə qaytarar və siz də ziyana uğramış halda geriyə qayıdarsınız. (Ali İmran surəsi, 149)**

Küfrə güzəştə gedən bir insan, tövbə edib düzəlmədiyi təqdirdə, bir müddət sonra Allahın ona verdiyi müddətin sonuna çatar. Bu mərhələdə, Allah bir vəsilə ilə onu möminlərdən ayırar və layiq olduğu küfrün içinə, orada əbədi olaraq qalmaq üzrə salar.

Bu səbəblə insan, dünyadakı cənnətin bir nemətinə çatmağa çalışarkən onun yanındakı cəhənnəmin pisliyinə və əzabına bulaşmaqdan son dərəcə çəkinməli, Allahın sərhədlərinə qarşı ola biləcək ən böyük dəqiqliyi göstərməlidir.

# Qanuni bir səbəblə küfr mühitinə girən möminin daşıdığı xüsusiyyətlər

**And olsun tövşüyə-tövşüyə çapanlara!**

**And olsun dırnaqları ilə qığılcım çıxaranlara!**

**And olsun sübh çağı həmlə edənlərə ki,**

**hücuma keçib tozanaq qaldıraraq**

**qoşunun içərisinə soxulurlar. (Adiyat surəsi, 1-5)**

Qurana baxdığımızda, möminlərin, ən başda da peyğəmbərlərin, həyatları boyunca küfrlə mübarizə etdiklərini görərik. Peyğəmbərlərin ictimai mühitlərə girdikləri, küfrün liderləriylə görüşüb İslamı təbliğ etdikləri, inkarçılara sinə gərərək cihad etdikləri Quranın bizə çatdırdığı, tarixin də şahidlik etdiyi bir həqiqətdir. Eyni vəziyyət peyğəmbərlərin izindən gedən möminlər üçün də məqbuldur. Möminlər, İslamı təbliğ etmək, küfrlə mübarizə aparmaq üçün hər fürsətdə inkarçıların içinə girər və Quranın əmrlərini yerinə yetirərlər.

Buradan da aydın olduğu kimi mömin, Quranda bildirilən ya da işarə edilən qanuni və zəruri şərtlər mövcud olduğunda küfr mühitlərində ola bilər; daha doğrusu olması şərtdir. Bunlar; İslamı təmsil və ya təbliğ etmək, "kafirləri “kin və qəzəblə qiyam qaldırdıracaq” bir yerə ayaq basmaq", küfrün zülm və ədalətsizliyinə qarşı mübarizə aparmaq, məlumat əldə etmək kimi dinin mənfəətlərinə istiqamətli vəziyyətlərdir.

Buna görə, əvvəldən bəri toxunduğumuz, küfrdən maddi və mənəvi olaraq qopub-ayrılma mövzusu, qətiyyən cihad hadisəsinə maneə törədən bir mücərrəd anlayış deyil. Bunun xaricindəki birliklərin, eşqbazlıqların səbəb və nəticələrini isə əvvəlki hissələrdə təfərrüatlı olaraq izah etdik.

Bəs qanuni bir səbəblə küfrün arasında olan mömin necə olar?

## Orada mövcud olma məqsədini ağlından çıxarmaz və qəflətə qapılmaz

Möminin əsl keyfiyyəti, küfrün hakim olduğu, içində heç kimin Allahı xatırlamadığı, Allahı unutmağa istiqamətli bütün şərtlərin meydana gəldiyi mühitlərdə

müəyyən olar. Rəhmani bir məqsədlə küfrün arasına girən bir mömin, hər cür şərtdə və mühitdə Allaha bağlı olduğunu, bağlılığının qırılmadığını, itaəti, etidalı, şəxsiyyəti və nəcibliyi əldən buraxmadığını isbat edəcəyi bir imtahan mühitinin özü üçün xüsusi olaraq yaradıldığını bilər. Bu səbəblə, küfrlə bir yerdəykən, orada mövcud olma niyyətini heç vaxt ağlından çıxarmaz, Allahla olan əlaqəsini və imani dərinliyini heç vaxt itirməz.

Halbuki, belə bir mühitdə, imani yetkinliyi tamamilə əldə edə bilməmiş bir insanın nəfsindəki mənfi düşüncə və meyillər təbii olaraq ön plana çıxar. Hadisə bir anda ibadət ölçüsündən çıxaraq nəfsani bir ölçüyə doğru gedər. Bunun nəticəsində ixlası zədələnildiyindən, etməli olduğu işə lazım olduğu kimi fikrini cəmləyə bilməz, buna görə də, edilən işdən də tam bir səmərə əldə edilməz. Buna görə, küfr mühitinə, başlanğıcda qanuni və lazımlı bir səbəblə girilmiş olsa belə, sonradan nəfsə ən kiçik bir pay ayırmamalı, onu həmişə nəzarət altında saxlayaraq həqiqi məqsədə kilidlənməlidir.

Mömin, küfrün içinə girdiyində İslamı təmsil etdiyinin şüurundadır. Bu səbəblə də bu mühitə, olduqca ən təsirli və ehtişamlı bir şəkildə girər. Nəfsinin bu ehtişamdan özünə pay çıxarmasına da icazə verməz. Getdiyi yerdə Allahı unudaraq qəflətə qapılmaq, tipinin, paltarının, avtomobilinin və ya mühitin təsirinə düşmək, qəti olaraq iman etmiş bir mömin üçün olacaq şey deyil. Belə bir vəziyyətə düşmək, küfrə təsir etmək, qəzəbləndirmək və ya heyran buraxmaq bir tərəfə, tam tərsinə İnsanın özünün küfrdən təsirlənməsinə, şüuraltının şeytani təlqinlərə açıq və müdafiəsiz bir hala düşməsinə gətirib çıxarar. Çünki Allahı unudan insana qəti olaraq şeytan müsəllət olacaq:

**Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. (Zuxruf surəsi, 36-37)**

Küfr mühiti də bu insan və cin şeytanlarının ən sıx olduğu mühitlərdən biridir. Bu "şeytan"ların həmişə fürsət gözlədikləri, ən kiçik bir səhv və qəfləti belə qiymətləndirəcəkləri unudulmamalıdır. Belə bir mühitdə daha çox ayıq və diqqətli olmaq vacibdir. Bu da ancaq, "Və de ki: **“Rəbbim, şeytanın vəsvəsələrindən sənə sığınaram. Və onların mənim yanımda olmalarından da sənə sığınaram Rəbbim." (Muminun surəsi,** 97--98) ayəsində ifadə edildiyi kimi, şeytanın verə biləcəyi mənəvi zərərlərdən, vəsvəsə və mənfi təlqinlərdən Allaha sığınmaqla mümkün olar. Çünki,

şeytanın Allahın ixlaslı qullarına heç bir zərərinin toxuna bilməyəcəyi, ayələrlə zəmanət altına alınmışdır:

**İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". (Hicr surəsi, 39-40)**

Məqsəddən ən kiçik bir azma olmadan, tam bir ixlasla, Allahın razılığını qazanmaq, Allahın şanını ucaltmaq, küfrü öz məkanında qəzəbləndirmək kimi səmimi və xalis bir niyyətlə hərəkət edildiyində isə, artıq Allahın qəti bir müvəffəqiyyət verəcəyi şübhəsizdir. Özlərinə aid sandıqları məkanlarda ixlaslı, qərarlı, güclü imana sahib möminləri görən inkarçılar, əllərində olmadan Allahı, ölümü və cəhənnəmi xatırlayarlar. Bu vəziyyətdən də fövqəladə dərəcədə narahat olarlar. Buna görə doyunca yaşamaq istədikləri üsyan, günah və sərhəd tanımazlığın zövqünü tam olaraq dada bilməz, illərdir basdırdıqları vicdanlarının səsini yenidən duymaqdan narahat olarlar.

**... kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Tövbə surəsi, 120)**

## Təsir və müvəffəqiyyəti yalnız Allahdan gözləyər, yalnız Allaha güvənib arxayın olar:

Mömin, hər zaman olduğu kimi, küfrlə əlaqədə olarkən də dua halındadır. Çünki onu müvəffəqiyyətli edəcək, küfr üzərindəki heybət və təsiri yaradacaq olan, maddi imkanları, xarici görünüşü ya da zəkası deyil, ancaq Allahdır. Allahın müvəffəqiyyət verməsi isə, səbəblərə deyil, birbaşa niyyətə və duaya bağlıdır. Allah, duaya verdiyi əhəmiyyəti "De ki: **'Sizin duanız olmasaydı Rəbbim sizə dəyər verərdimi?..'" (Furqan surəsi,** 77) ayəsiylə də açıq şəkildə bildirmişdir.

Həqiqətən də gözəllik, zənginlik və ehtişam yalnız bir vəsilədir. İxlaslı, dürüst, Allah rizası üçün bir hərəkət olduğu təqdirdə, Allah bu fiziki üstünlüklərə həmçinin, mənəvi gözəllik və üstünlük əlavə edər. O zaman da metafizik və sarsıdıcı bir

üstünlük ortaya çıxar. Bu üstünlük, möminin yalnız xarici görünüşünə deyil, hərəkət, söhbət və rəftarlarına da əks olunar. Bütün hərəkət, rəftar və söhbətləri son dərəcə ağıllı olar. Bütün bu xüsusiyyətlər də küfrə, sanki ovsunlanmışcasına, həddindən artıq dərəcədə təsir edər.

Quranda, hz. Yusifin başına gələnlərin izah edildiyi hekayədə bu ilahi qaydanın ən gözəl nümunəsini görərik. Hz. Yusif çox üstün bir fiziki gözəlliyə malikdir. Lakin ayədə, onu görən qadınların onu gözlərində daha da "böyütdükləri" və sanki bir mələk hesab etdikləri ifadə edilər:

**Qadın onların hiyləsindən xəbər tutduqda qonaqlığa gəlmək üçün onlara xəbər göndərdi və onlar üçün mütəkkələr hazırladı (məclis qurdu), onların hər birinə bir bıçaq verdi və Yusifa: "Onların qarşısına çıx!" – dedi. Qadınlar Yusifi gördükdə onu o qədər təriflədilər ki, unudub meyvə əvəzinə öz əllərini kəsdilər və dedilər: "Allah saxlasın! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!" (Yusif surəsi, 31)**

Deməli, Allah hz. Yusifi onlara, zahiri gözəlliyindən daha gözəl və heybətli göstərmişdir. Gözəlsə, Allah daha da gözəl göstərmiş, fiziki üstünlüyü qat-qat artmışdır. Onu mələyə bənzətmələri də ondakı bu mənəvi gözəllik, heybət və nəciblikdən, imanındakı üstünlükdən qaynaqlanmışdır.

Qadınlar, daha əvvəl yer üzündə heç rast gəlmədikləri bir heybət və gözəlliklə, üstünlük və keyfiyyətlə qarşılaşdıqları üçün, hz. Yusifin onlar üzərindəki təsiri də çox böyük və daimi olmuşdur. Tam fərqli, gündəlik həyatda heç rast gəlmədikləri bir ölçüylə qarşılaşmış, maraq və heyranlıqları da eyni dərəcədə olmuşdur.

Hz. Yusif nümunəsində olduğu kimi, Allah ixlaslı bir mömini bu cür əlavə xüsusiyyətlərlə təmin etməsə, onun ətrafa qarşı verəcəyi təsir, adi bir yaraşıqlı, adi bir zəngin və ya adi bir ağıllı ya da mədəni insanın meydana gətirdiyi yenə adi və keçici bir təsir və heyranlıqdan kənara çıxmaz. Ən gözəl bədən quruluşuna da sahib olsa, ən qəşəng və bahalı paltarları da geysə, saatlarla danışsa, yenə də lazımlı və daimi təsiri yarada bilməz; o mühitdən ayrıldığında da silinər gedər.

## Nümunəvi bir əxlaq və şəxsiyyət forması sərgiləyər

İnkar edənlərin, hər zaman can düşmənləri olaraq gördükləri möminlərin, bütün hərəkət və ifadələrindən əks və mənfi mənalar çıxara biləcəklərini, ön mühakiməli və

düşüncəsizcə yaxınlaşa biləcəklərini yaddan çıxarmamalıdır. Bu səbəblə, mömin, küfrün içində edəcəyi hər hərəkət və söhbətin, hər davranışın, ən incəliyinə qədər ölçülü və idarəli olmasına, qarşı tərəfin şantaj olaraq istifadə edə biləcəyi ən kiçik bir hərəkətə belə maksimum ölçüdə diqqət yetirər. Küfrün ən əsas xüsusiyyəti olan lağlağılığa əsas verən heç bir davranışda olmamağa, heç bir ifadə istifadə etməməyə diqqət göstərər. Bütün bunları edərkən də həm təbiilik və səmimiyyət ölçüsündən ayrılmaz, həm də küfrlə üz-göz olmayacaq bir təmkin və nəcibliyi həmişə mühafizə edər.

Bu qədər incə bir tarazlıq və idarəni təmin etmək adi bir insan üçün ilk baxışda çətin görünsə də, nəciblik, təmkin, ağıllı, şüurlu, ölçülü və idarəli davranmaq möminin onsuz da təbii xüsusiyyətidir. Buna görə, edilən hərəkət əsnasında ixlaslı olub, yalnız Allaha güvənildiyi təqdirdə, Allahın möminə köməkçi olacağı, onu küfrün qarşısında qətiyyən hörmətdən salmayıb ucaldacağı şübhəsizdir. Belə bir vəziyyətdə insanın hər hərəkətinin və hər sözünün Allahın qoruması altında olacağı mütləqdir.

Buna qarşı olaraq, küfrün arasına ixlassız və nəfsani bir şəkildə girildiyində tamamilə fərqli ilahi qanunlar baş verər. Belə bir hərəkətin qarşılığında, müvəffəqiyyətsizlik, alçalma, xəcalətli olma, çətin vəziyyətdə qalma, zərər çəkmə kimi nəticələri də ən başından gözə almaq vacibdir. Bu tip bir vəziyyət, küfrdə daha əvvəldən buraxılmış olan müsbət təsiri də-əgər varsa-zədələyər, hətta yox edər. Belə bir vəziyyətdə, qarşı tərəfdəki inkarçı, ya özünün əvvəldən yanıldığını və o insanı əvvəldən gözündə çox böyüdüb şişirtdiyini düşünər, ya da zəka və diqqətlilik dərəcəsinə görə, onda əvvəlki halından bir fərqlilik olduğunu sezər. Qarşısındakının zəifliyini və mənəvi geriləməsini bəzi inkarçılar da bu şəkildə qeyri-iradi olaraq hiss edə bilərlər. Buna görə, küfrün arasında olan imanlı bir insan, bütün mömin birliyini təmsil etdiyi üçün, hadisənin digər ucu da fəaliyyətin və möminlərin hamısına toxunar. Hər nə qədər, ən mənfi hadisə, ən mənfi inkişaf belə nəticədə İslamın xeyrinə çevrilsə də, fərdi olaraq edilə biləcək hər cür səhvin, veriləcək hər cür yanlış imicin bütün möminlərə və fəaliyyətə əks oluna biləcəyini də ağıldan çıxartmamaq lazımdır.

İxlas, səmimiyyət və fəaliyyət şüurundan məhrum, əzik və zəif şəxsiyyətli, sözünü, oturub qalxmasını, geyinməsini bilməyən kəslərin İslam adına küfrün qarşısına çıxmaları, inkarçıların özlərinə olan etibarlarını artırar, küfrlərini gücləndirər. İnkarçılar, belə bir kimsənin imanının, bu səbəbdən şəxsiyyətinin zəifliyindən, fərdi zəifliklərindən cəsarət alarlar. Aldıqları bu cəsarətin nəticəsində də bəzən o möminə istər eyham yoluyla, istərsə də bilavasitə öz sistemlərini, düşüncə və həyat tərzlərini müdafiə etmə, tərifləmə və ya açıqlama cəhdinə girərlər. Hətta daha da irəli gedərək, onun zəif iman və şəxsiyyətindən qaynaqlanan hal, rəftar, davranış və danışıq pozuqluqlarını İslama və möminlərin hamısına aid etməyə çalışarlar. Buna görə,

müdafiə etdiyi dini lazım olduğu kimi təmsil edə bilməyəcəyini hiss edən bir insan əgər, bir parça vicdanı qalmışsa, İslam adına ortaya çıxmamalı, bunu layiq olanlara buraxmalıdır. Əksinə bir davranış küfrü sevindirməkdən, möminləri çətin vəziyyətdə buraxmaqdan başqa bir işə yaramaz.

Bunun əksi olaraq, inkarçıların güclü imana və şəxsiyyətə sahib ixlaslı möminlərin yanında öz dinlərini xatırlamağa cəsarət tapmaları, onların dinlərindən güzəştə gedə bilmələri mümkün deyil. Buna görə həqiqi mömin, küfr üzərində, "... **bu gün inkarda azanlar, sizin dininizdən (sizi dininizdən çevirməkdən) ümid kəsmişlər..." (Maidə surəsi,** 3) ayəsində ifadə edilən ümidsizliyi və çarəsizliyi meydana gətirən insandır.

# Mömin ancaq digər möminlərlə birlikdə ola bilər

**Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir. (Saff surəsi, 4)**

İnsan axirətdə kimlərin yanında olmaq istəyirsə, dünyada da onlarla birlikdə olmalıdır. Buna görə də, bir möminin yeri, yalnız və yalnız möminlərin yanıdır. Əgər buna imkanı yoxsa -ki, bu ancaq keçici bir müddət üçün və çox istisna bir vəziyyət ola bilər- möminlərlə birlikdə olmağı qəlbən və səmimi olaraq istəməlidir. Möminlər; Allahın sifətlərini üzərində ən çox daşıyan, Allahın razılığını qazanmağa çalışan, Allahı çox sevən və çox zikr edən, özlərini Allaha təslim etmiş, canıyla və malıyla onun yolunda mübarizə edən üstün insanlardır. Buna görə, Allahın razılığının ən çox olduğu yer də möminlərin yanıdır. Necə ki, Quran, möminlərin həmişə bir yerdə olmalarını qəti bir şəkildə əmr edər:

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz. (Ali İmran surəsi, 103)**

Möminin rahat və hüzurlu olmasının yeganə yolu, digər möminlərlə birlikdə olmasıdır. Quranda bildirilən Allahın qanununa görə**, "qəlblər yalnız Allahı xatırlamaqla rahatlıq tapar" (Rad surəsi, 28).** Allahın xatırlanması isə, yenə Qurana görə, "Allahın öz adının xatırlanmasına icazə verdiyi evlərdə", yəni möminlərin evlərində reallaşar. Çünki "Allahın nuru", bu evlərdədir: **"(Bu nur) Allahın, onların ucaldılmasına və adının zikr edilməsinə icazə verdiyi evlərdədir; onların içində səhər-axşam Onu zikr edərlər." (Nur surəsi, 36)**

Əsl mömin, ağlın, maddi və mənəvi gözəlliyin, təmizliyin, gözəl əxlaqın hakim olduğu və içində daim Allahın zikr edildiyi mühitlərdən zövq alar. Ancaq, Allahın bir çox sifətinin təcəlli etdiyi evlərdə rahat hərəkət edə bilər. Qəlbi və ruhu ancaq belə bir mühitdə rahatlıq tapar. Bu mühit də yalnız möminlərin olduqları mühitdir. Qurana görə buralarda, **"təmizlənməyi daxilən arzulayan" adamlar vardır. (Tövbə surəsi, 108)**

Möminlərin birlikdə olmalarındakı ən əhəmiyyətli hikmətləri belə sadalaya bilərik: bir-birlərinə hər an dəstək olmaları, bir-birlərinə hər an müsbət təlqinlər

vermələri, bir-birlərinin təmizlənmələrinə vəsilə olmaları, bir-birlərinə xatırladıcı və xəbərdaredici olmaları, birlikdə Allahı xatırlamalarıdır. Bu səbəblə, mömin, vaxtının mümkün olduqca böyük bir hissəsini bu xüsusiyyətlərin olduğu mömin birliyinin arasında keçirməkdən böyük həzz duyar.

**Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)**

Bir vəzifənin zərurəti olaraq, küfrün arasına girməli olduğunda əsl vəzifəsini heç bir zaman unutmaz və ən çox istifadə məqsədilə hərəkət edər. Bu yolla möminlərə mənfəət təmin etməyə, küfrün maddi və mənəvi gücünü qırmağa çalışar. Bunun sayəsində Allahın şanının daha çox ucaldılmasını, möminlərin daha çox rahatlamalarını, hərəkət qabiliyyətlərinin artmasını təmin edər.

Möminlər ancaq, təbii və səmimi davranan, heç bir dünyəvi mənfəət güdməyən, bir-birinə qarşı düşkün, fədakar və incə düşüncəli insanların, yəni möminlərin olduğu bir mühitdə rahat ola bilərlər. Bu da, Allahın Quranda təsvir etdiyi cənnət modelidir. Mömin bu dünyada da, maddi və mənəvi olaraq, əlindən gəldiyi qədər cənnət mühitləri meydana gətirməyə çalışar və ancaq belə mühitlərdən zövq ala bilər. Möminlər bütün həyatları boyunca günün 24 saatı cənnət modelini həyatlarına tətbiq edərlər. Bunun ən diqqətə çarpan olanı, evlərində yaradılan mühitdir. Möminlərin evləri özləri üçün ən rahat, ən gözəl, ən etibarlı mühitdir. Ancaq bu şəkildə möminin ürəyi fərahlayar, rahatlayar və cahil cəmiyyətinin boş və məqsədsiz mədəniyyətindən uzaqlaşa bilər.

Allahın, bir insanı möminlər birliyinin içinə salmasının və ona dinə xidmət etmə imkanı verməsinin onun üçün çox böyük bir nemət olduğu ortadadır. Bu nemətin şükrü də möminlərlə birlikdə olmaqdan zövq almaq, hər fürsətdə onlarla birlikdə olmağa çalışmaqla olar. Əylənilləcəksə, çölə çıxılıb gəziləcəksə, yenə möminlərlə toplu halda edilən əyləncələr möminə zövq verər. Bunu, azadlığını məhdudlaşdırma olaraq deyil, tam tərsinə, təmizlənmə, rahatlıq olaraq görməsi, pislikdən uzaq olma, qorunma olaraq qiymətləndirməsi lazımdır.

Möminlərin bir-birlərinə bağlılıqları, sevgiləri və daşıdıqları üstün xüsusiyyətlər, Quranda belə izah edilir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Allah, möminlərlə birlikdə olmağın bir cənnət zövqü və mükafatı olduğunu, möminlərin axirətdə ən üstün insanlarla birlikdə olacağını ayələrdə bildirir:

**Allaha və Onun Elçisinə itaət edənlər Allahın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır. (Nisa surəsi, 69)**

Vəziyyət belə ikən, küfrlə birlikdə olmaqdan zövq alan bir insan özünə verilən nemətə açıq şəkildə nankorluq etmiş olar. Dünyada küfrdən zövq alan bir insanın axirətdə də küfrlə birlikdə olacağını bilməsi və qəbul etməsi lazımdır. Axirətdə isə küfrün olduğu yer cəhənnəmdir.

Saleh mömin az bir nemətdən belə Allahı xatırlayaraq, onun Allahdan gəldiyini bilərək, şükür edərək çox böyük zövq ala bilər. Belə olunca da, Allah nemətlərdən alınacaq zövqü və sevinci qat-qat artırar. Nemətlərin də eyni ölçüdə qat-qat artmasını, küfrün sahib olduqlarıyla müqayisə edilməyəcək dərəcədə ən gözəl, ən mükəmməl, ən keyfiyyətli mühitlərin meydana gəlməsini təmin edər.

## Mömin birliyi içində yer alan və fərqli imani mövqelərə sahib olan insan tipləri

**Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. (Fatir surəsi, 32)**

Kitabçanın əvvəlində, möminlərin arasında göründükləri halda müxtəlif səbəblərlə cahil cəmiyyət həyatına etina edən və cahil cəmiyyətinə meyil göstərən kəsləri üç qrupda təsnif etmişdik. Bunların içində xüsusilə-kitabçanın da əsas araşdırma sahəsini meydana gətirən üçüncü qrup, hər nə qədər homogen bir qrup kimi görünsə də əslində fərqli növ və dərəcədə imani problemləri olan fərdlərdən meydana gəlmişdir. Möminlərin arasına sığınan bu cür kəslərin xarakter və şəxsiyyət quruluşları, göstərdikləri rəftar və davranış pozuqluqları bir çox ayədə təfərrüatlarıyla təsvir edilmişdir.

Quranın endirildiyi dövrdə Peyğəmbərimizin ətrafında olan möminlər iman və təqva baxımından bir-birlərinə görə fərqli-fərqli mövqelərə və dərəcələrə sahib idilər. Ayələrdən öyrəndiyimizə görə bu möminlər arasında canını-malını son nöqtəsinə qədər satan, ən çətin anlarda belə Allaha, Rəsuluna və fəaliyyətə qarşı sarsılmaz bir sədaqət göstərənlərdən, çətinlik anlarında qəlbləri sürüşmək üzrə olan, hətta Allah haqqında müxtəlif zənnlərdə ola biləcək qədər imani zəiflik göstərə bilən kəslərə qədər geniş bir imani yelpik mövcud idi.

Bunlarla birlikdə yenə ayələrin xəbəriylə, özünü mömin zənn edib, amma əslində iman ürəklərinə girməmiş “yoldaşlar”, döyüşdən qaçacaq, sədəqə və qənimətlər mövzusunda problem yaradacaq, istəksizcə infaq edəcək, nəfsinə ağır gələn mövzularda itaətdə çətinlik çəkəcək və bunlara bənzər müxtəlif Quran xarici hərəkətləri edəcək tipdə kəslər də yer alır. Allah bunların kimisinə tövbə nəsib edib bağışlamış və həqiqi imanı nəsib etmiş, kimilərinə də müddət verib bir çətinlik anında onların həqiqi üzlərini ifşa etmiş, möminlərdən ayırmışdır. Kimisinin vəziyyəti də ancaq axirətdə, kitabını sağdan gözləyərkən sol tərəfindən aldığında ortaya çıxacaq.

Nəticə olaraq, bu insanların hamısı müəyyən bir müddət, bir hissəsi də həyatlarının sonuna qədər mömin camaatının içində birlikdə yaşamışlar, bir-birlərini mömin olaraq görmüşlər. Ancaq Allah, təqdir etdiyi və razı olduğu həqiqi mömin modelini ayələrdə açıq şəkildə təsvir etmişdir. Həqiqi, səmimi və ixlaslı möminlərin də öz aralarında müxtəlif üstünlük dərəcələri vardır. Əsl mömin təsvirinin xaricində qalan

kəslərin isə, bu ideal modeldən uzaqlaşdıqları ölçüdə imani dərəcələri düşər, küfrün sərhədlərinə yaxınlaşar; bir nöqtədən sonra da iman xəttinin xaricinə çıxarlar.

Quran ayələri hər dövrə baxdığı üçün eyni vəziyyət günümüzdəki bir mömin birliyi üçün də keçərlidir. Əlbəttə ki, mömin birliyinin içində olmaq, cahil cəmiyyətinə mənsub olmaqla müqayisə edilə bilməyəcək dərəcədə daha üstün və şərəfli bir mövqedir. Ancaq bunu axirət üçün bir zəmanət sayaraq, Allahın sərhədlərini qorumada güzəştə getmək, Allah qorxusu, halal, haram və itaət mövzularına lazım olan dəqiqlik və həssaslığı göstərməmək böyük bir aldanış olacaq. Unutmamalıdır ki, münafiqlər və müşriklər də İslam camaatı içərisindən çıxarlar. Bunların böyük bir qismi əvvəldən iman etdikləri halda sonradan inkara azmış, Allahın qəzəbinə və əbədi əzaba məhkum olmuşlar. Bu səbəblə, heç bir mömin özünü zəmanətdə görməməli, Allahın ayələrdə qınadığı xarakter və şəxsiyyət xüsusiyyətlərini üzərində daşımaqdan, bu tərz rəftar və davranış şəkillərini sərgiləməkdən çəkinməlidir. Ayələrdə təsvir edilmiş mənfi nümunələrdən dərs və ibrət götürməli, gözəl və tariflənən nümunələrə bənzəməyə çalışmalıdır.

Bu məqsədlə, mömin birliyi arasında yaşayan insan tiplərini, onların müsbət və mənfi xüsusiyyətlərini, nümunə götürüləcək ya da çəkiniləcək istiqamətlərini təsvir edən Quran ayələrini müəyyən başlıqlar altında təsnif etdik:

## "Həqiqi" möminlər

**İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər – məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır. (Ənfal surəsi, 74)**

**Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır. (Hucurat surəsi, 15)**

## Möminlərin çoxuna üstün qılınanlar

**Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha həmd olsun!" Süleyman Davuda peyğəmbərlikdə varis**

oldu və dedi: “Ey insanlar! Bizə quş dili öyrədildi və bizə hər şeydən verildi. Həqiqətən, bu, bizə göstərilən açıq-aşkar üstünlükdür”. Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplanıldı. Onlar müntəzəm şəkildə yerbəyer edildilər. (Nəml surəsi, 15-17)

## Önə keçənlər

Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur. (Tövbə surəsi, 100)

## Xeyirlərdə yarışanlar

Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. (Fatir surəsi, 32)

## Orta yolda olanlar

Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. (Fatir surəsi, 32)

## Ağır davrananlar

İçərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: “Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım” - deyər. Əgər Allahdan sizə bir lütf yetişərsə, onda guya sizinlə onun arasında heç vaxt bağlılıq olmamış kimi: “Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!” - deyər. (Nisa surəsi, 72-73)

## İmanlarını zülmlə qarışdırmayanlar

İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır. (Ənam surəsi, 82)

## Iman qəlblərinə hələ girməmiş olanlar

Bədəvilər: "Biz iman gətirdik!" – dedilər. De: "Siz qəlbən iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!" – deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır. Əgər Allaha və Onun Elçisinə itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir!" (Hucurat surəsi, 14)

## Allaha verdikləri əhdə sədaqət göstərənlər

Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər. (Əhzab surəsi, 23)

## Allaha verdikləri əhdə sədaqət göstərməyənlər

Baxmayaraq ki, onlar bundan əvvəl cihaddan boyun qaçırmayacaqlarına dair Allaha söz vermişdilər. Onlar Allaha verdikləri sözə görə sorğu-sual olunacaqlar. (Əhzab surəsi, 15)

## Səcdə edərkən ağlayanlar

O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı.Kitabda İdrisi də xatırla! Həqiqətən, o, düz danışan adam və bir

peyğəmbər idi. Biz onu yüksək bir məqama ucaltdıq. Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə gəmidə daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə Mərhəmətli Allahın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır. (Məryəm surəsi, 55-58)

## İnfaq etdiklərini başa vurmayanlar və istəyərək, ürəkləri ürpərərək infaq edənlər

Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin, Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 262)

Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 265)

Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər - Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 57-61)

Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Tövbə surəsi, 99)

## Fəthdən əvvəl infaq edib döyüşənlər və fəthdən sonra döyüşənlər

Sizə nə olub ki, malınızdan Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib

döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır. Kimdir o şəxs ki, Allaha gözəl bir borc versin (Allah yolunda malını yaxşı işlərə sərf etsin), O da onun üçün bunu qat-qat artırsın? Onun üçün çox dəyərli bir mükafat da vardır. (Hədid surəsi, 10-11)

## Nümayiş üçün infaq edənlər və infaqlarını itki sayanlar

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. (Bəqərə surəsi, 264)

Bədəvilərdən eləsi də var ki, Allah yolunda xərclədiyini itki sayır və sizə bir bədbəxtlik üz verməsini gözləyir. Bədbəxtlik onların öz başlarına gələcək. Allah Eşidəndir, Biləndir. (Tövbə surəsi, 98)

## Xəsislik edənlər

Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər. (Məhəmməd surəsi, 38)

## Xeyirə çağıran-yaxşılığı əmr edib pislikdən çəkindirənlər

Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)

## Mücahidlər-səbir edənlər

Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq. (Məhəmməd surəsi, 31)

## Döyüşə istəksiz çıxanlar

Rəbbin səni bu minvalla haqq-ədalət uğrunda Bədrə getmək üçün evindən çıxartdı. Halbuki bu, möminlərdən bir dəstənin xoşuna gəlmirdi. Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər, sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər. (Ənfal surəsi, 5-6)

## Döyüşdən geri qalanlar

Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. (Tövbə surəsi, 118)

## Üzrləri olmadığı halda döyüşə getməyənlər

Möminlərdən – üzürlülər istisna olmaqla – evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Allah onların hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir. (Nisa surəsi, 95)

## Döyüşmələrinə icazə verilməyənlər

Məgər sən, özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" – deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək

möhlət verəydin!" – dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə axirət daha xeyirlidir. Sizə xurma çərdəyindəki lif qədər belə haqsızlıq edilməz". (Nisa surəsi, 77)

## Kafirlərə qarşı sevgi bəsləyənlər

Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" – deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir. (Ali İmran surəsi, 119)

Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan azmış olar. (Mumtəhənə surəsi, 1)

Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır. (Ali İmran surəsi, 28)

## Böhtanı dilləriylə axtaranlar

O zaman siz bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır. Nə üçün siz onu eşitdiyiniz zaman: "Bizə bunu danışmaq yaraşmaz. Allahım! Sən pak və müqəddəssən! Bu, çox böyük bir böhtandır!" – demədiniz? Əgər möminsinizsə, bilin ki, Allah sizə bir daha buna bənzər şeyləri təkrarən etməməyinizi nəsihət edir. (Nur surəsi, 15-17)

## Elçiyə qarşı hörmətli olanlar-olmayanlar

Həqiqətən, Allahın Elçisi yanında səsini endirənlər o şəxslərdir ki, Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir. Onları bağışlanma və böyük mükafat gözləyir. Şübhəsiz ki, səni otaqların arxasından səsləyənlərin əksəriyyəti nə etdiklərini anlamırlar. Sən onların qarşılarına çıxanadək səbir etsəydilər, əlbəttə, bu, onlar üçün daha yaxşı olardı. Allah Bağışlayandır, Rəhmlidir. (Hucurat surəsi, 3-5)

## Digər möminləri sipər edərək qaçanlar

Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın. Allah sizin aranızdan daldalanaraq xəlvətcə çıxıb gedənləri bilir. Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar. (Nur surəsi, 63)

## İman edib hicrət etməyənlər

Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür. (Ənfal surəsi, 72)

## "Bizə qayğı göstər" deyənlər

Ey iman gətirənlər! Peyğəmbərə: “Bizə qayğı göstər!” – deməyin; “Bizə nəzər yetir!” – deyin və (Allahın əmrini) eşidin! Kafirləri ağrılı-acılı bir əzab gözləyir. (Bəqərə surəsi, 104)

## Yük olan-ədalətlə əmr edən

Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)

## Allah haqqında cahil zənnində olanlar

Ey iman gətirənlər! Allahın sizə göstərdiyi iltifatını xatırlayın. O zaman ki, düşmən ordusu sizin üstünüzə hücuma keçmişdi, Biz də onların üstünə külək və görmədiyiniz qoşunlar göndərmişdik. Allah sizin nə etdiyinizi görür. O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız. (Əhzab surəsi, 9-10)

Sonra O, bu qəm-qüssənin ardınca sizə bir təskinlik - bir qisminizi bürüyən mürgü nazil etdi. O biri qisminiz isə öz canlarının hayına qaldı. Onlar: “Bu işdə bizim üçün bir xeyir varmı?” - deyə Allah barəsində haqsız olaraq, cahillik dövründəkinə bənzər düşüncələrə qapıldılar. De: “Bütün işlər Allaha aiddir!” Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: “Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik” - deyirlər. De: “Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan müəyyən edilmiş kimsələr yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin kökslərinizdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün belə etdi. Allah kökslərdə olanları bilir”. (Ali İmran surəsi, 154)

Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən üz döndərənləri şeytan, qazandıqları bəzi günahlar üzündən səhv etməyə vadar etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah Bağışlayandır, Həlimdir. (Ali İmran surəsi, 155)

## Ərafdakılar

Hər iki tərəfin arasında pərdə və səddin üzərində hər kəsi simasından tanıyan insanlar olacaqdır ki, onlar Cənnət əhlini səsləyib: “Sizə salam olsun!” deyəcəklər. Halbuki özləri çox istədikləri halda hələ Cənnətə girməyəcəklər. (Əraf surəsi, 46)

## Ürəklərində xəstəlik olanlar

Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, yad kişilərlə nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Şəriətə müvafiq qaydada danışın. (Əhzab surəsi, 32)

## Allaha "bir ucundan" ibadət edənlər

İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)

## Qəlbləri yayınmaq üzrə olanlar

Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da əvvəlcə tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı Şəfqətlidir, Rəhmlidir. (Tövbə surəsi, 117)

## İman edib sapanlar

Şübhəsiz ki, iman gətirib sonra kafir olan, yenə iman gətirib sonra kafir olan, sonra da küfrlərini artıranları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir. (Nisa surəsi, 137)

Onlar dedilər: “Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!” (Bəqərə surəsi, 32)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah’ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah’ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə

əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature

of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə

telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər

nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını

görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ

gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**